Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 58 (8081) ÇƏRŞƏNBƏ, 13 mart 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# 3 milyon insana bəxş edilən sevinc

Dövlətlərin demokratiklik əmsalı təkcə sosial-iqtisadi inkişaf göstəriciləri ilə deyil, həm də hakimiyyətin xalqa xidmət səviyyəsi, cəmiyyət qarşısında götürdüyü öhdəliklərə sadiqliyi ilə müəyyənləşir. Xalqın böyük etimad göstərərək mandat verdiyi hakimiyyət fəaliyyəti ilə daim ictimai maraqları doğrultmağa çalışır, hər bir vətəndaşın mənafeyinə hesablanan siyasi-hüquqi və sosial-iqtisadi islahatları həyata keçirməklə böyük rəğbət qazanır.

### Hər bir addımını xalqın mənafeyinə uyğun atan lider

Bütün bunlar 15 il ərzində Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən, fəaliyyətinin əsas qayəsi xalqa və dövlətə sədaqətli, layiqli xidmət prinsipi üzərində qurulan Prezident İlham Əliyevin idarəçilik fəlsəfəsinin əsasını təşkil edir.

Hər bir addımını xalqın mənafeyinə uyğun atması, xalqına sədaqətli xidmət cənab İlham Əliyevə ümumxalq sevgisi qazandırıb. Təkcə bu ilin 2 ayı ərzində böyük sosial islahatlar paketi çərçivəsində imzaladığı fərman və sərəncamlar, iqtisadi və struktur islahatları, regionlara səfəri zamanı rəsmi protokoldan kənara çıxaraq vətəndaşların problemləri ilə maraqlanması, səbirlə onları dinləməsi, arzu-istəklərini nəzərə alması, hətta yeri gələndə onunla görüşə gələnlərlə birlikdə “Azərbaycan” mahnısını oxuması İlham Əliyevin Prezident kimi öhdəliklərə sadiqliyinin, dövlət başçısı kimi qayğıkeşliyinin, səmimiliyinin bariz təcəssümüdür.

Məhz bu amilləri nəzərə alaraq dövlət başçısı hər dəfə xalqla görüşündə haqlı olaraq bu fikirləri səsləndirir: “Mən verdiyim sözlərə həmişə əməl etmişəm. Həmişə xalqın dəstəyinə arxalanmışam, mənə güc verən xalqın mənə olan inamıdır” .

### Şəhid ailələrinə, müharibə əlillərinə, məcburi köçkünlərə Prezident qayğısı

Hər zaman vətəndaşına qayğı ilə yanaşan, sosial problemlərinin həllini prioritet vəzifə kimi görən və bu istiqamətdə məqsədyönlü siyasət həyata keçirən Prezident yanvar və fevral aylarında xalqın sosial rifahının yüksəldilməsi istiqamətində çox ciddi addımlar atdı.

Bu, bir həqiqətdir ki, Azərbaycanda şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə, qaçqın və məcburi köçkünlərə dünyada analoqu olmayan bir dövlət yanaşması mövcuddur. Bu kateqoriyaya aid olan insanlara hər zaman böyük diqqət göstərən Prezident İlham Əliyev yanvar ayında şəhid ailələrinə 11 min manat birdəfəlik ödəmələrin verilməsi barədə sənəd imzaladı. Ümumilikdə 12268 şəhidin vərəsələrinin birdəfəlik ödəmə almaq hüququ var. İndiyədək 4291 şəhidin 5966 vərəsəsinə birdəfəlik ödəmənin verilməsinə dair qərar qəbul olunub və onlardan 3981 şəhidin 5474 vərəsəsinə ödəniş edilib.

Bunun ardınca dövlət başçısı həm Qarabağ, həm də Əfqanıstan müharibəsi şəhidlərinin ailələrinə verilən müavinətləri 300 manatadək artırdı. Prezidentin aylıq təqaüdünü alan 12 mindən çox şəhid ailəsinin təqaüdü yüksəldi.

Həmçinin məcburi köçkünlərə verilən aylıq müavinətlər 50 faiz artırıldı. Hazırda məcburi köçkünlərdən 81 min 476 nəfəri 22 manat, 415 min 81 nəfəri 40 manat məbləğində vahid aylıq müavinət alır. Aprelin 1-dən isə həmin məbləğlər, müvafiq olaraq, 33 və 60 manat təşkil edəcək.

Ardı 4-cü səh.

*Örl LİTZENBERQER, ABŞ səfiri:*

# “Azərbaycanın dəstəyi ABŞ hökuməti tərəfindən yüksək qiymətləndirilir”

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 12-də Amerika Birləşmiş Ştatlarının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Örl Litzenberqerin etimadnaməsini qəbul edib.



AZƏRTAC xəbər verir ki, Örl Litzenberqer fəxri qarovul dəstəsinin qarşısından keçdi. Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti səfirlə söhbət etdi.

Örl Litzenberqer Azərbaycana səfir təyin olunmasından məmnunluğunu ifadə etdi və fəaliyyəti müddətində iki ölkə arasında əlaqələrin daha da inkişafı məqsədilə səylərini əsirgəməyəcəyini vurğuladı.

Prezident İlham Əliyev Örl Litzenberqeri ölkəmizə səfir təyin olunması münasibətilə təbrik etdi və onun səfir kimi fəaliyyəti dövründə Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin daha da genişlənəcəyinə və inkişaf edəcəyinə əminliyini bildirdi.

Prezident İlham Əliyev və səfir Örl Litzenberqer Azərbaycan-ABŞ əlaqələrinin yüksək səviyyədə olması və uğurlu inkişafından məmnunluq ifadə etdilər.

Səfir Azərbaycanın Əfqanıstanda həyata keçirilən sülhməramlı əməliyyata canlı qüvvə ilə töhfəsini və həmçinin bu əməliyyat əsnasında göstərdiyi logistik və nəqliyyat dəstəyinin ABŞ hökuməti tərəfindən yüksək qiymətləndirildiyini qeyd etdi.

Söhbət zamanı siyasi əlaqələr, enerji təhlükəsizliyi, ticarət, demokratik inkişaf məsələləri ətrafında fikir mübadiləsi aparıldı, humanitar sahədə, o cümlədən insanlar arasında əlaqələrin inkişafının əhəmiyyəti vurğulandı.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər müzakirə edildi, Prezident İlham Əliyev Azərbaycanın münaqişənin həllinə dair beynəlxalq hüququn norma və prinsiplərinə, ədalətə əsaslanan mövqeyini diqqətə çatdırdı. Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan tərəfi ATƏT-in Minsk qrupunun həmsədrlərinin son bəyanatı, o cümlədən danışıqlar formatının dəyişdirilməməsi ilə bağlı fikirlərini müsbət qarşılayır.

Prezident İlham Əliyev və səfir Örl Litzenberqer Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin gələcək inkişafı və daha çox sahələri əhatə etməsinin önəmi barədə fikir mübadiləsi aparıblar.

# *Fransa Senatının sədri Jerar LARŞE:* “Mehriban Əliyeva Fransa-Azərbaycan əlaqələrinin inkişafına böyük töhfə verir”

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva martın 12-də Parisdə Fransa Senatının sədri Jerar Larşe ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Fransa Senatının sədri Jerar Larşe Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanı qarşıladı.

Mehriban Əliyeva Senatda Fransa-Azərbaycan dostluq qrupunun sədri və müşavirlər ilə görüşdü.

Sonra Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva ilə Fransa Senatının sədri Jerar Larşenin görüşü oldu.

Jerar Larşe ölkələrimiz arasında əlaqələrin yüksək səviyyədə olduğunu bildirdi. Prezident İlham Əliyevin ötən ilin iyulunda Paris səfərini məmnunluqla xatırlayan Senatın sədri Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın da Fransa-Azərbaycan əlaqələrinin inkişafına böyük töhfə verdiyini, onun mədəniyyət, elm və təhsil sahələrində böyük xidmətlərinin olduğunu vurğuladı. Azərbaycanda qadınlara səsvermə hüququnun hələ Fransadan əvvəl verildiyini diqqətə çatdırdı. Fransanın Azərbaycan-Avropa İttifaqı əməkdaşlığının inkişafında maraqlı olduğunu deyən Senatın sədri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən danışarkən bildirdi ki, ölkəsi ATƏT-in Minsk qrupunun həmsədri kimi münaqişənin sülh yolu ilə həllinə tərəfdardır.









Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Fransaya səfərinin uğurlu olduğunu və səfər çərçivəsində bir sıra səmərəli görüşlərin keçirildiyini bildirdi. Ölkələrimiz arasında ikitərəfli münasibətlərin yüksək səviyyəsini qeyd edən Azərbaycanın Birinci vitse-prezidenti əməkdaşlıq baxımından böyük potensialın olduğunu dedi. Azərbaycan-Fransa iqtisadi əməkdaşlığının daha da inkişaf etdirilməsinin əhəmiyyətini vurğulayan Birinci vitse-prezident fransız şirkətlərini ölkəmizdə daha fəal olmağa çağırdı. Mehriban Əliyeva Azərbaycanın iştirakı olmadan regionda heç bir layihənin reallaşmadığını və ölkəmizin Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynadığını diqqətə çatdırdı. Azərbaycanın Birinci vitse-prezidenti ölkəmizin Avropa İttifaqı ilə əlaqələrinin də yüksək səviyyədə olduğunu dedi və Tərəfdaşlıq Prioritetləri sənədinin imzalanmasının əhəmiyyətini vurğuladı.

Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə, sülh və danışıqlar yolu ilə beynəlxalq hüququn normaları və ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllinin vacibliyini vurğulayan Mehriban Əliyeva bildirdi ki, münaqişənin mövcudluğu bütün regionun inkişafına və təhlükəsizliyinə ciddi təhdiddir.

Görüşdən sonra Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Fransa Senatının xatirə kitabını imzaladı.

## Roma Papası Fransisk həzrətlərinə

Zati-müqəddəsləri!

Tacqoyma Gününüzün ildönümü münasibətilə Sizə və Sizin simanızda bütün həmməzhəblərinizə öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasındakı münasibətlər, eyni zamanda, dinlər və mədəniyyətlər arasında dialoq və tolerantlıq mühitinin təşviqi üçün bariz nümunədir. İnanıram ki, əməkdaşlıq zəminində addımlarımız bundan sonra da dünyada sülhün və əmin-amanlığın, qarşılıqlı anlaşma və həmrəyliyin bərqərar olmasına xidmət edəcəkdir.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, ali missiyanızda uğurlar diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 mart 2019-cu il*

## Azərbaycan Respublikasının Milli Televiziya və Radio Şurası üzvlərinin təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Aşağıdakı şəxslər 6 il müddətinə Azərbaycan Respublikasının Milli Televiziya və Radio Şurasının üzvləri təyin edilsin:

Balakişiyev Bəxtiyar Qaraca oğlu
Əliyeva Telli Pənah qızı

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 mart 2019-cu il*

# Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Fransanın birinci xanımı Brijit Makron ilə görüşü olub





Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın martın 12-də Yelisey sarayında Fransanın birinci xanımı Brijit Makron ilə görüşü olub.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan-Fransa əlaqələrinin inkişafından məmnunluq ifadə edildi. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Parisə səfərinin əlaqələrin inkişafına mühüm töhfə verəcəyi bildirildi. Söhbət zamanı ailə-qadın, gender bərabərliyi, təhsil, ətraf mühitin qorunması və digər məsələlərlə bağlı müzakirələr aparıldı, Bakıda Fransız Liseyinin fəaliyyətinin məmnunluq doğurduğu qeyd olundu, Şərqdə hüquq elminin ilk dəfə Azərbaycanda tədris edildiyi bildirildi. Mehriban Əliyevanın rəhbərliyi ilə müxtəlif dövrlərdə Fransada keçirilən mədəniyyət tədbirlərinin əhəmiyyəti vurğulandı.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Fransanın birinci xanımı Brijit Makronu ölkəmizə səfərə dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu.

## Çoxmənzilli binaların dam örtüklərinin təmiri ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Çoxmənzilli binaların dam örtüklərinin təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.67-ci bəndində göstərilmiş məbləğin 2 206 000 (iki milyon iki yüz altı min) manatı Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə ayrılsın.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.
3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 mart 2019-cu il*

## Çoxmənzilli binaların lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Çoxmənzilli binaların lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.67-ci bəndində göstərilmiş məbləğin 449 000 (dörd yüz qırx doqquz min) manatı Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə ayrılsın.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.
3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 mart 2019-cu il*

# Azərbaycan həqiqətlərini fransız ictimaiyyətinə çatdırmaq üçün qarşılıqlı səfərlərin böyük əhəmiyyəti var




Martın 12-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Fransa Respublikası Milli Assambleyasının sədri Rişar Ferran ilə görüşü olub.

AZƏRTAC xəbər verir ki, Fransa Milli Assambleyasının sədri Rişar Ferran Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanı qarşıladı.

Mehriban Əliyeva Milli Assambleyada Fransa-Azərbaycan dostluq qrupunun sədri və müşavirlər ilə görüşdü.

Sonra Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva ilə Fransa Milli Assambleyasının sədri Rişar Ferranın görüşü oldu. Görüşdə Azərbaycan-Fransa əlaqələrinin inkişafından məmnunluq ifadə edildi.



Rişar Ferran ölkələrimizin parlamentləri arasında əlaqələrin inkişafında maraqlı olduqlarını bildirdi. O, zəngin tarixə və mədəniyyətə malik ölkəmizin Fransada daha yaxşı tanıdılması üçün fransız deputatların Azərbaycana səfərlərinin əhəmiyyətini vurğuladı.

Birinci vitse-prezident Mehriban Əliyeva ikitərəfli münasibətlərin inkişafında parlamentlərarası əlaqələrin önəmindən danışdı, qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd etdi. Mehriban Əliyeva bu cür səfərlərin ölkəmizi daha yaxından tanımaq və Azərbaycan həqiqətlərini fransız ictimaiyyətinə çatdırmaq üçün yaxşı fürsət yaratdığını bildirdi. Mehriban Əliyeva milli dəyərlərə sadiq olan ölkəmizdə tarixlə müasirliyin gözəl sintezinin yaradıldığını diqqətə çatdırdı.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Fransa Milli Assambleyasının sədri Rişar Ferranı Bakıya səfərə dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu.

# Birinci vitse-prezident Mehriban Əliyeva Fransanın sabiq Prezidenti Nikola Sarkozi ilə görüşüb

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva martın 12-də Parisdə Fransa Respublikasının sabiq Prezidenti Nikola Sarkozi ilə görüşüb. AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Parisə səfərindən məmnunluq ifadə olundu. Bu səfərin Fransa-Azərbaycan əlaqələrinin inkişafına töhfə verdiyi bildirildi.

Söhbət zamanı ölkələrimiz arasında əlaqələrin bundan sonra da inkişaf edəcəyinə əminlik ifadə olundu.




# Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Fransanın mədəniyyət naziri Frank Riyester ilə Orsey muzeyini ziyarət edib




Martın 12-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Fransanın mədəniyyət naziri Frank Riyesterin müşayiəti ilə Parisin Orsey muzeyini ziyarət edib.

AZƏRTAC xəbər verir ki, Fransanın mədəniyyət naziri Frank Riyester Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanı qarşıladı.

Parisin Orsey muzeyi ilə tanışlıq zamanı Azərbaycanın Birinci vitse-prezidentinə məlumat verildi ki, Fransa paytaxtının ən yaraşıqlı binalarından olan və əvvəllər Paris-Orlean marşrutu üzrə işləyən qatarların stansiyası kimi fəaliyyət göstərən bu bina artıq Orsey muzeyi adlanır. Bu gün Parisin, həmçinin Avropanın ən çox ziyarət edilən mədəniyyət ocaqları sırasında olan Orsey muzeyi Sena çayının sahilindədir və 1898-1900-cü illərdə inşa edilib. Paris arxitekturasının ən gözəl nümunələrindən olan Orsey muzeyi 1978-ci ildən tarix-memarlıq abidəsi kimi qorunur. Ümumiyyətlə, bu muzey şöhrətinə görə Parisdə ilk üçlükdə, dünya üzrə isə 10-luqda qərarlaşıb. Əsasən impressionist və postimpressionist kolleksiyalardan tərtib olunan muzeydə il ərzində müxtəlif tədbirlər - konsertlər, tamaşalar, "dəyirmi masa"lar təşkil olunur. Muzeyi il ərzində 4 milyona yaxın insan ziyarət edir. Əsasən fransız və Avropa sənətkarlığına dair nadir incəsənət nümunələrinin toplandığı muzey 1848-1915-ci illərdə ərsəyə gələn heykəltəraşlıq, rəsm, mebel və fotolardan ibarət məşhur kolleksiyalara sahibdir. 1986-cı ildə açılışı olan Orsey muzeyində dünya şöhrətli rəssamlardan Monenin, Deqanın, Renuarın əsərlərinin kolleksiyası daha çox ziyarətçilərin diqqətini çəkir. Onların əsərlərində XIX əsr Avropa həyatının müxtəlif çalarları əks olunub. Bu əsərləri maraqlı edən ən mühüm məqam da elə budur. Avropa cəmiyyətlərinin inikası olan bu sənət nümunələrində o dövr üçün nadir sayılacaq rəssamlıq texnikalarına da rast gəlinir.

Qeyd edək ki, Azərbaycan ilə Fransa arasında mədəniyyət sahəsində əlaqələrin inkişafı daim diqqət mərkəzindədir və bu sahədə əməkdaşlıq ikitərəfli münasibətlərdə mühüm istiqamət təşkil edib. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva ölkələrimiz arasında mədəni əməkdaşlığın inkişafında hər zaman müstəsna rol oynayıb. Onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun bu istiqamətdə həyata keçirdiyi çoxşaxəli fəaliyyət proqramı nəticəsində dünya mədəni irsinin Fransadakı ən gözəl nümunələri bərpa olunub. Buna misal olaraq Parisdə Versal sarayının parkındakı ümumbəşəri abidələrin, Strasburqda XV əsrə aid katedralın beş vitrininin bərpasını, Luvr muzeyində İslam İncəsənəti Departamentinin yaradılmasını göstərmək olar. Bununla da bu abidələr məhz Azərbaycanın səyləri nəticəsində yenidən dünya mədəni xəzinəsinə daxil olub. Ona görə də ölkəmizin, xüsusilə də Heydər Əliyev Fondunun fəaliyyəti xaricdə, həmçinin Fransada hər zaman rəğbətlə qarşılanıb.

# Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Fransanın iqtisadiyyat və maliyyə naziri Brüno Lömer ilə görüşüb




Martın 12-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Fransanın iqtisadiyyat və maliyyə naziri Brüno Lömer ilə görüşü olub.

AZƏRTAC xəbər verir ki, nazir Brüno Lömer Birinci vitse-prezident Mehriban Əliyevanın Azərbaycan iqtisadiyyatının şaxələndirilməsində mühüm rolu olduğunu bildirdi. Birlikdə işləməyə hazır olduqlarını qeyd edən nazir Brüno Lömer dedi ki, Fransa yeni texnologiyalar sahəsində ölkəmizə töhfələr verə bilər. "Total"ın Azərbaycanda fəal rol oynadığını bildirən fransalı nazir nəqliyyat, kənd təsərrüfatı sahələrində də təcrübələrini bölüşə biləcəklərini qeyd etdi. O, iki ölkə arasında əməkdaşlığı möhkəmləndirməyi təklif etdi.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva ölkələrimiz arasında iqtisadi sahədə əməkdaşlığa böyük önəm verildiyini bildirdi və bunun üçün yaxşı zəmin olduğunu vurğuladı. Mehriban Əliyeva ölkələrimiz arasında siyasi dialoqun yüksək səviyyədə olduğunu, ancaq mövcud iqtisadi əməkdaşlığın real potensiala cavab vermədiyini vurğuladı. Bildirdi ki, tezliklə konkret layihələrin həyata keçirilməsinə başlanılmalıdır.

Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycan-Fransa Hökumətlərarası İqtisadi Komissiyasının rolunun əhəmiyyətinə toxunaraq, cari ildə bu komissiyanın növbəti iclasının keçirilməsinin vacibliyini qeyd etdi. Mehriban Əliyeva Fransanın iqtisadiyyat və maliyyə naziri Brüno Lömerin ölkəmizə səfərinin ikitərəfli əməkdaşlığa böyük töhfə verəcəyinə ümidvar olduğunu bildirdi.

Fransalı nazir Hökumətlərarası İqtisadi Komissiyanın cari ildə iclasının keçirilməsi təklifini yüksək qiymətləndirərək, may ayında Avropada seçkilərdən sonra ölkəmizə səfərə gəlməyə imkanı olacağını dedi. Bildirdi ki, Fransa ilə əlaqələr həm də ölkəmizin Avropa İttifaqı ilə yaxınlaşmasına böyük töhfə verə və Azərbaycanın Avropa İttifaqına inteqrasiyası üçün pəncərə rolunu oynaya bilər.

# Azərbaycan-Dağıstan əlaqələri yeni inkişaf mərhələsindədir

“Azərbaycanda təqribən 700-dən çox Rusiya kapitallı şirkət fəaliyyət göstərir. Ölkələrimiz arasında uğurlu investisiya əməkdaşlığı həyata keçirilir. İkitərəfli münasibətlərin inkişafında dövlət başçılarının rəsmi səfərləri və görüşləri böyük rol oynayır”.



Bu fikirləri Azərbaycanda səfərdə olan Rusiya Federasiyası Dağıstan Respublikası Xalq Məclisinin sədri Xızrı Şıxsəidovun başçılıq etdiyi nümayəndə heyəti ilə dünən keçirilən görüşdə Milli Məclisin Sədri Oqtay Əsədov söyləyib.

Sədr qeyd edib ki, Azərbaycan və Rusiya prezidentlərinin siyasi iradəsi və birgə səyləri nəticəsində iki ölkə arasında əlaqələr strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Bu əlaqələrin qurulmasında Dağıstanın da xüsusi rolu var. Azərbaycanla Dağıstan arasında çox qədim dostluq və qonşuluq münasibətlərinin olduğunu söyləyən Oqtay Əsədov bu səfərin əlaqələrin inkişafına mühüm töhfə verəcəyini vurğulayıb.

Milli Məclisin Sədri parlamentlərarası münasibətlərin də yüksələn xətlə inkişaf etdiyini söyləyərək qeyd edib ki, bu gün Azərbaycan ilə Dağıstan arasındakı münasibətlərin daha da gücləndirilməsi üçün yeni imkanlar mövcuddur.

Azərbaycan və Dağıstan xalqlarının uzun əsrlərdən bəri sülh və dostluq-qardaşlıq şəraitində yaşadıqlarını söyləyən Xalq Məclisinin sədri Xızrı Şıxsəidov ölkəsinin Azərbaycanla yaxşı münasibətlərə xüsusi önəm verdiyini diqqətə çatdırıb. Bildirib ki, əlaqələrin daha da inkişaf etdirilməsi üçün qarşılıqlı səfərlərin böyük əhəmiyyəti var. Bu cür görüşlərin keçirilməsi əməkdaşlığın daha da genişlənməsinə töhfəsini verəcək. Eyni zamanda münasibətlərin genişlənməsində parlamentlərin rolu xüsusi qeyd olunub.

Qonaq Rusiya-Azərbaycan arasındakı əlaqələrə toxunaraq ictimai-siyasi və humanitar sahələrdəki münasibətlərin nümunə olduğunu söyləyib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparılıb.

***R.BAXŞƏLİYEV, F.BAĞIROV (foto), “Azərbaycan”***

# Bakıda keçiriləcək Narkotiklərlə Mübarizə üzrə 36-cı Beynəlxalq Konfransla bağlı növbəti hazırlıq iclası olub

Martın 12-də Nazirlər Kabinetində Narkotiklərlə Mübarizə üzrə 36-cı Beynəlxalq Konfransın 2019-cu ildə Bakıda keçirilməsi ilə bağlı görülən işlərin əlaqələndirilməsi və təşkilati məsələləri üzrə Təşkilat Komitəsinin iclası keçirilib.



AZƏRTAC xəbər verir ki, iclasda Baş nazirin müavini, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının və Təşkilat Komitəsinin sədri Əli Həsənov Prezident İlham Əliyevin yürütdüyü uğurlu daxili və xarici siyasət nəticəsində ölkəmizin sürətlə inkişaf edən dövlətə çevrildiyini deyib. Bildirilib ki, ölkə inkişaf etdikcə, beynəlxalq tranzit marşrutları artdıqca narkotiklərin qeyri-qanuni dövriyyəsi sahəsində də təhlükələr çoxalır. Narkotiklərlə Mübarizə üzrə 36-cı Beynəlxalq Konfransın ölkəmizdə keçirilməsi narkotiklərin qeyri-qanuni dövriyyəsinin qarşısının alınması baxımından əhəmiyyətli olacaq. Bu sahədə çalışan mütəxəssislərimiz beynəlxalq ekspertlərin təcrübələrindən yararlanacaqlar. Baş nazirin müavini son üç ayda konfransa hazırlıq işləri ilə bağlı aidiyyəti qurumların sıx əməkdaşlıq etdiyini diqqətə çatdırıb.

Sonra Narkotiklərlə Mübarizə üzrə 36-cı Beynəlxalq Konfransın keçirilməsi ilə əlaqədar yaradılan işçi qrupunun rəhbəri Natiq Məmmədov görülən işlərlə bağlı məlumat verib. Sonda aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.

# Daxili Qoşunlar istənilən döyüş tapşırığını yüksək səviyyədə yerinə yetirməyə qadirdir





Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının yaradılmasından 27 il ötür. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu münasibətlə Daxili Qoşunların komandanlığı və bir qrup hərbi qulluqçusu Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin xatirəsini ehtiramla yad edib.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər çiçək dəstələri düzülüb.

Sonra Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş Vətən övladlarının unudulmaz xatirəsinə ucaldılmış “Əbədi məşəl” abidəsinin önünə əklil qoyulub. Daxili Qoşunların şəhid olmuş hərbi qulluqçularının abidəsi ziyarət edilib.

Daha sonra Daxili Qoşunların Baş İdarəsində əlamətdar hadisə - növbəti ildönümünə həsr olunmuş təntənəli mərasim keçirilib.

Tədbirdə daxili işlər naziri, general-polkovnik Ramil Usubov iştirak edib.

Əvvəlcə Daxili Qoşunların döyüş bayrağı salona gətirilib. Ulu öndər Heydər Əliyevin, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda, xidməti borclarını yerinə yetirərkən qəhrəmancasına həlak olmuş hərbi qulluqçuların və bütün şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət himni səsləndirilib.

Daxili işlər nazirinin müavini-Daxili Qoşunların komandanı, general-leytenant Şahin Məmmədov qurumun yaranması, inkişafı və bugünü barədə geniş məruzə ilə çıxış edib. Bildirilib ki, qoşunların torpaqlarımızın müdafiəsi məqsədilə döyüşə başladığı ilk gün - 1992-ci ilin 12 mart tarixi ümummilli lider Heydər Əliyevin 1995-ci il 9 mart tarixli fərmanı ilə Azərbaycan Respublikasının Daxili Qoşunları Günü elan olunub.

Daxili qoşunların tarixinin parlaq hadisələrlə zəngin və vətənimizin yeni tarixi ilə sıx bağlı olduğunu diqqətə çatdıran nazir müavini xalqa və dövlətə sədaqətlə xidmət edən qoşunların hərbi qulluqçularının polis orqanlarının əməkdaşları ilə birgə qarşıya qoyulmuş tapşırıqları hər zaman layiqincə yerinə yetirdiklərini vurğulayıb. O, respublikamızın ərazi bütövlüyü uğrunda döyüşlərdə Daxili Qoşunların 672 hərbi qulluqçusunun şəhid olduğunu, 1173 nəfərin yaralandığını, 9-nun itkin düşdüyünü, hərbi qulluqçulardan 9 nəfərinin Azərbaycanın Milli Qəhrəmanı adına layiq görüldüyünü qeyd edib.

Məruzəçi bildirib ki, 1994-cü ildən başlayaraq Daxili Qoşunlarda idarəetmənin təkmilləşdirilməsi, döyüş və peşə hazırlığının yüksəldilməsi, hərbi intizamın möhkəmləndirilməsi, normativ hüquqi və maddi-texniki bazanın yaradılması istiqamətində əməli tədbirlər həyata keçirilib. Planlı şəkildə aparılan müvafiq işin nəticəsi olaraq komandirlərin və idarəetmə orqanlarının fəaliyyətinin səmərəliliyi, hərbi hissələrin döyüş qabiliyyəti, əsgər və zabitlərin vətənpərvərlik ruhu daha da yüksəlib, mənəvi-psixoloji durumu əhəmiyyətli dərəcədə möhkəmlənib.

Daxili işlər naziri, general-polkovnik Ramil Usubov Daxili Qoşunların yaranmasının 27-ci ildönümü münasibətilə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin səmimi təbriklərini, ən xoş arzularını tədbir iştirakçılarına çatdırıb. O, ulu öndər Heydər Əliyevin ordu quruculuğu prosesində Daxili İşlər Nazirliyi sisteminin əsas struktur qurumlarından olan Daxili Qoşunların təkmilləşməsinə böyük önəm verdiyini, məhz əbədiyaşar liderin xüsusi diqqət və qayğısı ilə formalaşıb inkişaf etdiyini məmnunluqla xatırladıb.

Ramil Usubov dövlət başçısının ali diqqət və qayğısı sayəsində Daxili Qoşunların qarşıya qoyulan istənilən döyüş tapşırığını keyfiyyətlə yerinə yetirməyə qadir peşəkar birləşməyə, sabitliyin təminatçılarından və dövlətçiliyin dayaqlarından birinə çevrildiyini, maddi-texniki bazasının, kazarma-yaşayış fondunun yaxşılaşdırılması, müasir silah, texnika, xüsusi vasitələrlə təchizatı üçün məqsədyönlü tədbirlər həyata keçirildiyini, hərbi hissələrin ən yüksək beynəlxalq standartlara uyğun olan texnika, xüsusi vasitələr və rabitə sistemləri ilə təchiz edildiyini bildirib. Qeyd edib ki, ölkədə cinayətkarlığa qarşı mübarizədə, ictimai asayişin və hüquq qaydasının qorunmasında, silahlı cinayətkar dəstələrin zərərsizləşdirilməsində, təbii fəlakətlərin və texnogen qəzaların nəticələrinin aradan qaldırılmasında şəxsi heyətin özünəməxsus rolu var.

Daxili Qoşunların inkişafı üçün qəbul edilən qərarların, Prezidentin 2019-cu il 7 mart tarixli müvafiq sərəncamları ilə daha 16 hərbi qulluqçunun dövlət mükafatları ilə təltif olunmasının, iki nəfərə isə ali zabit rütbəsinin verilməsinin, bayram ərəfəsində hərbi qulluqçuların maaşlarının artırılmasının şəxsi heyət tərəfindən minnətdarlıqla və ruh yüksəkliyi ilə qarşılandığını vurğulayan nazir deyib ki, ölkə rəhbərinin Daxili Qoşunların müxtəlif tədbirlərində iştirakı, eləcə də qoşunların xidmətinə verdiyi yüksək qiymət, haqqında söylədiyi dəyərli fikirlər, tövsiyələr hər zaman fəaliyyət proqramı kimi qəbul olunmaqla şəxsi heyəti daha böyük uğurlara ruhlandırır.

Nəzərə çatdırılıb ki, Daxili Qoşunlar 1997-ci ildən Türkiyənin Jandarma Qüvvələri Baş Komandanlığı ilə sıx əməkdaşlıq edir. Nazir R.Usubov əldə edilmiş uğurlarda danılmaz roluna, təmənnasız yardımlarına görə dost və qardaş dövlətin Jandarma Qüvvələri Baş Komandanlığının rəhbərliyinə, hərbi mütəxəssislərinə təşəkkürünü bildirib.

General-polkovnik Ramil Usubov əminliklə bildirib ki, Daxili Qoşunların bütün şəxsi heyəti respublikamızda asayişin, daxili təhlükəsizliyin, vətəndaşların və dövlətin qanuni mənafelərinin hüquqazidd əməllərdən qorunmasında bundan sonra da səy və bacarığını əsirgəməyəcək.

Daxili Qoşunların yaranmasının 27-ci ildönümü ilə əlaqədar bir qrup hərbi qulluqçunun təltif edilməsi haqqında dövlət başçısının sərəncamları, daxili işlər nazirinin və nazir müavini - Daxili Qoşunların komandanının imzaladıqları əmrlər elan olunduqdan sonra xidmətdə fərqlənənlərə dövlət təltifləri təqdim edilib.

Tədbirin sonunda mərasim iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə müraciət qəbul olunub.

# Küveyt Azərbaycanın haqlı mövqeyini hər zaman dəstəkləyir

Milli Məclis Sədrinin birinci müavini Ziyafət Əsgərov martın 12-də ölkəmizdə səfərdə olan Küveyt Millət Məclisinin Küveyt-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri Xalid əl-Üteybinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Ziyafət Əsgərov Azərbaycanın Küveytlə münasibətlərin daha da dərinləşməsinə önəm verdiyini qeyd edərək, əlaqələrin dostluq və qardaşlıq xarakteri daşıdığını bildirib. Qeyd edib ki, Azərbaycanla Küveyt müxtəlif beynəlxalq təşkilatlarda, o cümlədən BMT-də, İslam Əməkdaşlıq Təşkilatında, Qoşulmama Hərəkatında yaxından əməkdaşlıq edirlər.

Milli Məclis Sədrinin birinci müavini bildirib ki, ölkələrimiz arasında bütün sahələrdə yaxşı əlaqələr mövcuddur. Parlamentlərarası münasibətlər də inkişaf etməkdədir. Bu cür səfərlər əməkdaşlığın daha da genişləndirilməsi üçün mühüm əhəmiyyət kəsb edir.

Azərbaycanın regionun ən inkişaf etmiş ölkəsi olduğunu deyən Ziyafət Əsgərov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Xocalı soyqırımı barədə də məlumat verib. Bildirib ki, Azərbaycanda 1 milyondan çox qaçqın və məcburi köçkün var. Münaqişənin həlli istiqamətində BMT-nin qəbul etdiyi 4 qətnaməyə məhəl qoymayan işğalçı Ermənistan beynəlxalq hüququn prinsiplərinə zidd hərəkətlər edir. Z.Əsgərov Küveytin Azərbaycanın haqlı mövqeyini dəstəklədiyinə görə təşəkkürünü bildirib.

İqtisadi münasibətlərə diqqət çəkən Ziyafət Əsgərov bu sahədəki vəziyyətin mövcud potensialla uzlaşmadığını, iqtisadi əlaqələrin inkişafı üçün böyük imkanların olduğunu diqqətə çatdırıb.

Küveyt Dövləti Millət Məclisinin Küveyt-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri Xalid əl-Uteybi öncə səmimi qəbul və qonaqpərvərlik üçün təşəkkür edib. Onun sözlərinə görə, Azərbaycanla Küveyti bir-birinə güclü əlaqələr bağlayır. Qonaq vurğulayıb ki, Küveyt Azərbaycanın ərazi bütövlüyünü, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın haqlı mövqeyini hər zaman dəstəkləyir. Küveyt beynəlxalq təşkilatlar çərçivəsində də hər zaman Azərbaycanın tərəfindədir.

Xalid əl-Uteybi qeyd edib ki, Azərbaycan hökumətinin Küveyt dövləti və digər körfəz ölkələrinə sadələşdirilmiş viza rejiminin tətbiqi ilə bağlı olaraq Küveytdən gələn turistlərin sayında müşahidə olunan artım sevindiricidir. Ümid edirik ki, gələcəkdə Azərbaycan küveytli turistlər üçün ən əsas turizm ölkələrindən biri olacaq.

Görüş qarşılıqlı maraq doğuran məsələlərin müzakirəsi ilə davam edib.

***Rəşad CƏFƏRLİ, “Azərbaycan”***

# BSU-da “İlaxır çərşənbə səfirlərlə” adlı bayram tədbiri keçirildi





Martın 12-də Bakı Slavyan Universitetində (BSU) Yel çərşənbəsinə həsr olunmuş “İlaxır çərşənbə səfirlərlə” adlı təntənəli tədbir keçirildi.

Tədbirdə Bolqarıstanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Nikolay Yankov, Yunanıstanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Nikolaos Kanellos, Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfirinin xanımı Məltəm Özoral, Rusiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfirinin mədəniyyət işləri üzrə məsləhətçisi İqor Yeronin, Ukraynanın Azərbaycandakı səfirinin birinci katibi Georgiy Selskiy, Milli Məclisin vitse-spikeri Bahar Muradova, deputat Sahibə Qafarova, Azərbaycan Rus İcmasının sədri, deputat Mixail Zabelin, “Kaspi” mətbuat və təhsil mərkəzinin rəhbəri Sona Vəliyeva, təhsil eksperti, professor Şahlar Əsgərov və media nümayəndələri iştirak ediblər.

Bayram tədbirini giriş sözü ilə BSU-nun rektoru, professor Nurlana Əliyeva açdı. O, hər il olduğu kimi bu il də yazın gəlişinin BSU-da xüsusi ab-hava ilə qarşılandığını vurğuladı. Rektor Novruzun ölkəmiz və xalqımız üçün tarixi və mədəni əhəmiyyətindən söhbət açaraq bildirdi ki, Azərbaycan xalqı əsrlərboyu bu bayramı xüsusi təntənə ilə qeyd edib, milli adət-ənənələri öz qəlbində yaşadıb. Azərbaycanın multikulturalizm və tolerantlıq sahəsində başqa ölkələrə nümunə olduğunu vurğulayan Nurlana Əliyeva xalqımızın milli adətlərini, süfrə mədəniyyətini dünya xalqlarına sərgiləmək məqsədilə səfirlərin tədbirə dəvət edildiyini diqqətə çatdırdı. Dünyada sülh və birgə yaşayışın təmin edilməsi məqsədilə hər kəsi Novruzun aşıladığı milli dəyərləri qorumağa və onları gələcək nəsillərə ötürməyə çağıran Nurlana Əliyeva bildirdi: “Uzun illər xalqımızın həyata, gələcəyə inam hissini, torpağa bağlılığını formalaşdıran Novruz bayramı ulu öndər Heydər Əliyevin milli dəyərlərimizə və adət-ənənələrimizə göstərdiyi diqqət və qayğı nəticəsində ideologiyamızın əsas elementlərindən birinə çevrilmiş və dövlət səviyyəli tədbirlər sırasına daxil edilmişdir. Möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi altında respublikada gedən davamlı inkişaf həyatın bütün sahələrini əhatə edən uğurlarımızın sayının artmasına və Novruz bayramının ildən-ilə daha firavan, xoş ovqat və əmin-amanlıqla qeyd edilməsinə şərait yaratmışdır”. Çıxışının sonunda rektor bayram münasibətilə hər kəsi təbrik etdi, xoş arzularını bildirdi.



Tədbir iştirakçılarını Novruz bayramı münasibətilə təbrik edən Azərbaycan Rus İcmasının sədri, Milli Məclisin deputatı Mixail Zabelin qeyd etdi ki, Azərbaycan xalqının ruhunda multikulturalizm, tolerantlıq yaşayır: “Azərbaycanda Novruz bayramı uzun illərdir xüsusi təntənə ilə keçirilir. Yaxın gələcəkdə Azərbaycan xalqının Novruz bayramını Qarabağda qeyd etməsini arzu edirəm”.

Sonra BSU-nun yerli və əcnəbi tələbələri müxtəlif dünya dillərində bayram təbriki səsləndirdilər.

Tədbir çərçivəsində rektor, professor Nurlana Əliyeva tərəfindən Çelyabinskdə keçirilən III Beynəlxalq Diplomatik Oyunlarının final mərhələsində qalib gələn BSU-nun “Kaspi” komandasının üzvlərinə və Belarusun Minsk şəhərində keçirilən “54-cü Ulduz yürüşü” adlı beynəlxalq tədbirdə iştirak edən bir qrup fəal tələbəyə diplom verildi.

Bayram tədbiri BSU-nun “Arzu” rəqs ansamblı və özfəaliyyət dərnəyinin hazırladığı bir-birindən maraqlı rəqslər və mahnılardan ibarət konsert proqramı ilə davam etdi.

***Zöhrə FƏRƏCOVA, “Azərbaycan”***



◆ Diplomatın söhbəti

# Odlar halqasından Odlar yurduna gələn yol

## Dünyanın ən böyük müsəlman ölkəsinə islam Azərbaycandan yayılıb

**“Diplomatın söhbəti” rubrikasının budəfəki qonağı ən böyük müsəlman dövləti olan İndoneziyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Hüsnan Bəy Fananidir. Səmimi söhbətində ən böyük arzusunu da açıqlayan səfir Azərbaycan muğamının möhtəşəmliyinə heyranlığını gizlətmədi. Diplomatın fikirlərini, istəklərini, Azərbaycan-İndoneziya əlaqələri və ölkəmiz haqqında xoş təəssüratları barədə onun öz dilindən eşitmək çox maraqlıdır.**

*Musiqiçi, rəssam, atlet, müəllim və diplomat kimi çalışan İndoneziyanın ölkəmizdəki səfiri Hüsnan Bəy Fanani Azərbaycanı ikinci vətəni hesab edir:*

“Mən, əslində, ölkənizə xas bir hekayə dinləmişdim, amma bilmirdim ki, o hekayə Azərbaycana məxsusdur. Uşaq ikən anam məni hər dəfə yatızdıranda sevgi hekayələri, nağıllar danışardı. Onlardan biri də “Leyli və Məcnun” idi. Bura gələndən sonra öyrəndim ki, o hekayə dahi Azərbaycan şairi Nizaminindir...”



### Məndə 4-5 etnik qrupun qarışığı var

- 1967-ci il noyabr ayının 13-də paytaxt Cakartada dünyaya gəlmişəm. Ailədə 9 övlad olmuşuq. Mənim valideynlərim İndoneziyanın bir-birindən çox uzaq əyalətindəndirlər. Atam Yava və Sumatra adasından gəlmədir. Anam isə Şərqi Yava və Bali etnik qrupunun qarışığındandır.

Məndə də təxminən 4-5 etnik qrupun qarışığı var. Qardaş və bacılarımla birgə Cakartada təhsil almışıq, uşaqlığımız da orada keçib. Orta təhsilimi bitirdikdən sonra Qondor əyalətində yerləşən İslam Universitetində təhsilimi davam etdirdim. Bildiyiniz kimi, İndoneziyada əhalinin əksəriyyəti müsəlmandır. İslam dininin bütün dərinliklərini orada öyrəndim. Sonra təhsilimi davam etdirmək üçün Pakistanın paytaxtı İslamabada yollandım. Orada ingilis dili və ədəbiyyatını öyrəndim. Təhsilimlə bağlı çoxlu diplomlarım var. 1988-1991-ci illərdə isə Məhəmməd əl-Cinnah adına universitetdə oxudum. Ondan sonra Lahorda Pəncab Univeristetində təhsilimi davam etdirdim. Yenə islam dini üzrə biliklərimi zənginləşdirdim. 1992-ci ildə təhsilimi fərqli, siyasi yöndə davam etdirmək qərarına gəldim. 1993-cü ildə Hollandiyaya yollandım. Orada bir il işlədikdən sonra Leiden Universitetində sosial antropologiya üzrə magistr dərəcəsi aldım. 1997-ci ildə magistr təhsilimi başa vurduqdan sonra mənimlə eyni universitetdə magistraturada oxuyan xanımla bir-birimizi sevib ailə həyatı qurmaq qərarına gəldik. O da indoneziyalıdır. Ailə qurduqdan sonra vətənə qayıtdım.

O vaxt İndoneziyada islahatlar dövrü idi. Gərgin vaxtlar idi. Mən bir müddət insan haqları üzrə komissiyada çalışdım. İnsan haqlarının müdafiəsi üzrə çox fəallıq göstərirdim. 1999-cu ildə İslam İnkişaf Partiyasının rəhbərinin katibi oldum. 2001-2005-ci illərdə isə prezident müavininin katibi vəzifəsində işlədim, 2007-ci ildən İslam İnkişaf Partiyasının baş katib müavini vəzifəsində çalışdım. 2009-cu ildə Din Nazirliyinin xüsusi əməkdaşı olaraq fəaliyyətə başladım. 2012-ci ildə İndoneziya parlamentinin üzvü seçildim. 2014-2015-ci illərdə doktorluq dərəcəsini bitirdim. Və nəhayət, 2016-cı ildə Azərbaycana səfir təyin olundum.

### Pianinoda ifa edir, rəsm çəkirəm

- Gəncliyim ancaq təhsil almaqla keçməyib. Çoxlu hobbilərim olub. Gənc yaşlarımda atlet olmuşam. İndoneziyanın milli üzgüçülər qrupunun üzvü idim. Milli dəniz yarışlarında Asiya ölkələri arasında İndoneziyanı təmsil edirdim. Yəni mən həm də idmançıyam. İdmana çox marağım var.

Kiçik yaşlarımdan musiqini sevirəm. Hətta pianinoda ifa etməyi öyrənmişəm. Pakistanda təhsil aldığım zamanlarda tələbələrim var idi, onlara pianino ifa etməyin sirlərini öyrədirdim. Hollandiyada təhsil alanda musiqi qrupum var idi, onlarla axşam dərsdən sonra müxtəlif kafe və məkanlarda ifalar edirdik. Təhsilimlə bağlı maddi ehtiyaclarımı bununla ödəməyə çalışırdım. Eyni zamanda rəsm əsərləri də çəkib satırdım.

Əlhəmdülillah, valideynlərim həmişə çalışıb ki, bütün övladları yaxşı təhsil alsın. Bizə hər cür maddi dəstək olmağa çalışıblar. Ancaq mən heç vaxt valideynlərimdən pul almağa meyilli olmamışam. Eləcə də bacı-qardaşlarım. Həmişə xərcimizi hansısa yolla özümüz ödəmək istəmişik. Bacı-qardaşlarım da təhsillərini ölkə xaricində alıblar. Aralarında Amerikada, Çində, Fransada təhsil alanları var. İndi hərəsi bir peşə sahibidir: memar, siyasətçi, həkim...

Çox hobbilərim var, saymaqla bitməz. Bir çox kitabların da müəllifiyəm. Siyasət, din, ədəbiyyat, ümumiyyətlə, həyat haqqında fərqli kitablar yazmışam. Özüm haqda kitab yazsam, öz adımı qoyacağam. Amma mənim haqqımda kitab artıq yazılıb. Dostumun qələmə aldığı kitab “Səmada gəzişmək” adlanır.

Gördüyüm işlər çoxdur. Ən çox sevdiyim isə odur ki, artıq bir çox ölkələrdə yaxşı dostlara sahibəm. Həyatda prinsipim odur ki, düşmənim az, dostum çox olsun.

### Azərbaycan zəngin tarixi olan, ilk insanın yarandığı ölkədir

- Azərbaycana səfir təyin olunmağımla bağlı xəbər alan kimi ölkəniz haqqında məlumat toplamağa başladım. Çünki Azərbaycanın necə ölkə olduğunu, harada yerləşdiyini bilmirdim. Səfir olduqdan sonra öyrəndim ki, Azərbaycan Qafqazda yerləşir, bir vaxtlar Sovet İttifaqının tərkibində olub. Rusiya, Gürcüstan, İranla həmsərhəddir və Xəzər dənizinin sahilindədir. Bu ilkin məlumatları aldıqdan sonra artıq ölkə haqqında araşdırma aparmağa başladım və öyrəndim ki, Azərbaycan zəngin tarixi olan, ilk insanın yarandığı ərazidir.

Əslində uşaq ikən ölkənizə xas bir hekayə dinləmişdim, amma bilmirdim ki, bu hekayə Azərbaycana məxsusdur. Çox kiçik yaşlarımda məni anam yatızdırardı. Həmişə mənə nağıl, hekayələr danışardı. Onların əksəriyyəti də sevgi hekayələri olurdu. Biri də “Leyli və Məcnun” idi. Bura gələndən sonra bildim ki, o hekayə dahi Azərbaycan şairi Nizami Gəncəvinindir. Sonra Nizami Gəncəvinin yaradıcılığını öyrəndim, digər görkəmli yazıçılar, tanınmış şəxslərin həyat və yaradıcılığı ilə tanış oldum. Məsələn, Məshəti, Füzuli, Xətai, Sabir, Nəriman Nərimanov və digərləri.

### Azərbaycan xalqı Nuh peyğəmbərin nəvələridir

- Burada Xəzərin zəngin tarixə malik olduğunu öyrəndim. Nuh peyğəmbərin gəmisinin formalaşdığı məkan buradır. Daşqınlar olmuş, gəmi suyun üzərinə qalxmış, daşqınlar çəkildikdən sonra orada olan bütün insanlar, heyvanlar Qafqazda məskunlaşmışdı. Daşqından qalan bütün qalıqlar müxtəlif ölkələr arasında parçalanıb və onun nəticəsində Qara dəniz, Aralıq dənizi formalaşıb, amma qalıqların əsas hissəsi Qafqazda yarğan formasında hazırkı Xəzər dənizinin formalaşmasına səbəb olub.

Həmin daşqınların suyunun tərkibindəki zənginliklər isə Xəzərdə çökərək fosil, yəni neftin yaranmasına səbəb olub. Bu səbəbdən Azərbaycan nefti digər ölkələrin nefti ilə müqayisədə daha keyfiyyətlidir. Azərbaycan xalqı Nuh peyğəmbərin nəvələridir. Qobustandakı əlyazmalar, insan qalıqlarının tapılması da bunu sübut edir. Bütün bunlar bir daha təsdiqləyir ki, Azərbaycan çox qədim ölkədir, tarixi bir neçə minilliklərə söykənir.

Azərbaycanın görkəmli din xadimlərindən biri Şeyx Mövlanə Malik İbrahimin atası əslən ərəb olub, anası isə azərbaycanlı. Özü burada dünyaya gəlib. Dini təhsil almaq üçün Səmərqəndə yollanıb.

Orada islam dinini öyrəndikdən sonra Xəzər dənizi vasitəsilə Asiya ölkələrinə səfərə çıxıb. Vyetnam və Kambocanı keçdikdən sonra isə Yava adasına gəlib. Orada islam dininin təbliğinə və onu yaymağa başlayıb.

Bu səbəbdən qeyd etmək olar ki, İndoneziyaya islam dini Azərbaycandan gəlib. İkisi də müsəlman ölkəsidir. Bu səbəbdən hər zaman bir-birimizə yaxın dəstək olmalıyıq. Azərbaycan mənim üçün çox böyük önəm kəsb edir. Bu ölkəyə səfir təyin olunduğum üçün çox xoşbəxtəm.

### Çətinliyim əsasən dil baxımından olub

- Bura gəldiyim ilk zamanlarda müəyyən çətinliklərim oldu. İlk başda Azərbaycan haqqında çox məlumat əldə etmək istədim. Dostlarımla ünsiyyət qurdum, xüsusilə Azərbaycan siyasətini, tarixini öyrənməyə çalışdım. Amma çətinliyim əsasən dil baxımından olub.

Zaman keçdikcə insanlarla ingilis dilində ünsiyyət qura bildim. Başqa bir problem isə insanların çoxunun İndoneziya haqqında məlumatı olmaması idi. Bu səbəbdən Azərbaycanda həyata keçirdiyim proqramın əsas məqsədi İndoneziyanı təbliğ etmək, Azərbaycan xalqına tanıtdırmaq oldu. Bir çox universitetlərdə tələbələrlə görüşüb onlara İndoneziya-Azərbaycan münasibətləri, hər iki ölkənin tarixi, dininin formalaşması haqqında məlumat verirəm. Bu görüşün ardınca onlar üçün mahnı da ifa edirəm. Tələbələr də, mən də bu görüşlərdən çox məmnun oluruq.

### Ən çox sevdiyim şah plovu, düşbərə, dolma, saciçidir

- Azərbaycanın bir çox adət-ənənələri ilə tanışam, amma mənim üçün ən maraqlı ölkənizin milli musiqisi, muğamıdır. Həmişə mənə çox maraqlı idi ki, İlahi, muğam necə bir musiqidir, necə ifa edilir?!

Azərbaycan rəqsləri də çox möhtəşəmdir. Demək olar ki, bu regionda rəqslər bir-birinə çox oxşardır. Məsələn, Azərbaycan və Türkiyə rəqslərini göstərmək olar. Amma Azərbaycan milli rəqslərinin özünəxas cəhətləri var ki, bunu digərlərində görmək mümkün deyil. Azərbaycan musiqi alətlərinin də tarixi məni çox maraqlandırır. Çalışıram ki, onların tarixini öyrənəm.

Azərbaycan mətbəxini də çox sevirəm. Çünki bizim mətbəxdən fərqlidir. İndoneziyada yeməklərin əksəriyyəti acıdır. Sizin plovu çox xoşlayıram, xüsusilə şah plovu. Bundan başqa, düşbərə, dolma, saciçi, nərə balığı, qutabı da xoşlayıram. Əsasən ət və göy qutabı qışda yeməyi sevirəm. Hətta yol kənarından dönər də alıb yeyirəm. Çox dadlı olur.

### İndoneziyanı “Odlar halqası” adlandırmaq olar

- İndoneziya Cənub-Şərqi Asiyada yerləşir. 17 min 500 adadan ibarətdir. 270 milyon əhalisi var. Əhalisinin sayına görə dünyada dördüncü yerdə durur. 5 min km çimərlik ərazisi var. Şərqindən qərbinə qədər olan məsafə Bakıdan Londona və ya Bağdaddan Norveçə qədər olan məsafə qədərdir.

İndoneziyada üç müxtəlif saat fərqi var. Şərqindən qərbinə qədər 8 saatlıq yoldur. Ekvatorda yerləşir və Azərbaycanda olduğu kimi dörd mövsüm yoxdur. Yalnız isti mövsüm və yağışlar mövsümü var. Vulkanlarla zəngin ölkədir. Azərbaycan “Odlar yurdu” adlanırsa, mənim də ölkəmi “Odlar halqası” adlandırmaq olar. Çünki İndoneziyanın hər bir adası vulkanlarla əhatə olunub. Bu səbəbdən təbii fəlakətlər, sunami, vulkan püskürmələri tez-tez baş verir. Amma bu, İndoneziya xalqı üçün adi bir hala çevrilib. 3 min 300-dən çox etnik qrup, 800-dən çox dil var. İndoneziyanın zəngin mədəniyyəti var. Təbii yataqlarla zəngin ölkədir. Qızıl yataqları çoxdur. İldə 2 milyon kiloqram qızıl istehsal olunur. Həm də dünyada ən çox balıq ixrac edən ölkədir.

### İndi əsas qüvvə Asiya ölkələridir

- İndoneziya Cənub-Şərqi Asiya Ölkələri Assosiasiyasının - ASEAN təşkilatının rəhbəridir. Həmin təşkilatın əsas mərkəzi ofisi Cakartada yerləşir. Bundan əlavə, İndoneziya 10 kiçik ölkə ilə həmsərhəddir: Filippin, Kamboca, Laos, Vyetnam, Bruney, Avstraliya, Yeni Qvineya və s.

İqtisadi, eləcə də texnologiya baxımından Cənub-Şərqi Asiya ölkələrinin yaxşı inkişaf etdiyini demək olar. Robotların hazırlanmasında Mərkəzi Asiya ölkələri indi çox irəliləyir. Buna görə bir çox dünya ölkələrinin əsas diqqət mərkəzində həmin bölgədir. Əgər əvvəl sənaye, iqtisadiyyat sahəsində əsas qüvvə Avropa ölkələrinin əlində idisə, hazırda həmin qüvvə Asiya ölkələrinə məxsusdur.

### Gələcəkdə ölkəmin rəhbəri olmağın xəyalını qururam

- İndoneziyada bir çox tayfa, etnik qruplar olduğundan dəyərlərimiz çox fərqlidir. Amma bir çox ailədaxili qaydalar var ki, onlar təqribən Azərbaycanla eynidir. Bunlar da dindən irəli gəlir.

270 milyon əhalisi olan ölkədə gənclərə böyük diqqət və qayğı göstərilir. İnsanlar fərqli etnik qrupdan olsalar da, həmişə bir-birinə deyirlər ki, o mənim qardaşımdır. Qonaqpərvərlik, dostluq var insanların arasında. Birgə toplaşıb vaxt keçirməyi çox sevirlər.

Sevgi bölüşmək deməkdir. Biz öz sevgimizi, istəyimizi, kədərimizi necə bölüşə bilərik? Bunu düşünməliyik. Sevgini bölüşmək lazımdır. Bu o deməkdir ki, ən yaxşı hislərimizi yoldaşımızla, övladımızla bölüşməliyik. İndi hərdən İndoneziya musiqisini dinləyəndə çiçəklənən İndoneziyanın xəyalını qururam.

### Çalışıram ki, nümunə olum

- Səfir olmaq çətin bir iş deyil, amma məsuliyyətlidir. Səfir qarşısındakı şəxsi, ölkəni başa düşməli, onun nəyə ehtiyacı olduğunu duymalıdır. Diplomat olaraq Azərbaycanı duymalıyam ki, İndoneziya hökuməti olaraq ona nə verə bilərəm. Və eyni zamanda da İndoneziyaya Azərbaycandan nə kimi yardım edə bilərəm. Bunu bacarmaq lazımdır. Hər bir səfirin də yanaşması fərqlidir. Çünki ölkələr də fərqlidir.

Səfir olmasaydım, bəlkə də müəllim olardım. Siyasət elə bir şeydir ki, mənim üçün hər bir xalq tərəfindən icra edilməli olacaq bir sahədir. Siyasət eyni zamanda xalqa xidmət deməkdir.

Ailədə ən böyük övladam. Bacı-qardaşlarıma həm də ata-ana əvəziyəm. Çalışıram ki, onlara nümunə olum. Səfir olmağım eyni zamanda atalıq deməkdir. Səfirlik sanki İndoneziyanın burada bir parçasıdır və mən o parçanın rəhbəriyəm.

### Hərdən yoruluram...

- Gənclik zamanı qarşıma qoyduğum bir çox məqsədlərimə çatmışam. Məktəb vaxtı həmişə düşünürdüm ki, xalqım üçün necə yararlı bir vətəndaş ola bilərəm? Həmişə arzu edirdim ki, prezident olum. Elə də olmasa, ən azından diplomat olum.

Hərdən olur ki, yoruluram, pensiyaya çıxmaq istəyirəm. Hamıda belə hal olur. Amma biz həmişə nəyisə öyrənməliyik. Həyat elədir ki, həmişə hərəkətdə olmalıyıq, yenilənməliyik. Biz işləməsək, həyat dayanır sanki. Çalışmaq, iş həyatın bir hissəsi olmalıdır. Öz həyatımızı hərəkət etdiririk, günümüz belə keçir. Gördüyümüz işi sevsək, bizə daha rahat olacaq. Nə iş olur-olsun, ondan zövq almaq lazımdır.

Azərbaycan gəncləri aktiv, daim inkişafı düşünməli, innovativ, kreativ, gələcəyi görən, fikirləşən, yaradıcı gənclər olmalıdırlar. Azərbaycan torpaqları ancaq Azərbaycan gənclərinin olmalıdır. Digərləri işğal edib ona sahib çıxmamalıdır. Çünki gələcəkdə bu torpaqların müdafiəçisi Azərbaycan gəncləri olacaq.

### “Sən çox gözəlsən...”

- Azərbaycan dilini öyrənmək istəyirəm, amma vaxtım olmur. Müəyyən sözləri başa düşürəm və elə sözlər də var ki, artıq bilirəm. Məsələn, “sən çox gözəlsən”.

Burada iş cədvəlimi elə qururam ki, işləyə-işləyə, bir növ, istirahət etmiş oluram. Hazırda ölkələrimiz arasında əlaqələr çox möhkəmdir.

Beş materikin hər birində səfərdə olmuşam, amma düşünürəm ki, ən gözəl yer elə Azərbaycandır. Sanki ikinci vətənimdir. Təbiətinin gözəlliyi ilə yanaşı, xalqı da səmimidir. Ən uzun fəaliyyət göstərdiyim ölkə Azərbaycandır. Burada ailəmlə birgə qalıram.

Ümid edirəm ki, 2019-cu ildə bir çox sahələrdə əlaqələrimizin daha da möhkəmlənməsi üçün müəyyən işlər görəcəyəm. Elə bir iş görmək istəyirəm ki, yaddaşlarda qalsın, mən getdikdən sonra həmin iş məni xatırlatsın. Bu il mənim buradakı fəaliyyətimin sonuncu ilidir. Növbəti il İndoneziyaya qayıdacağam. Ona görə istərdim ki, bu il elə işlər görüm ki, mən getdikdən sonra məni, İndoneziyanı xatırlatsın.

*Fərqli ölkələr gəzib, amma dediyinə görə, heç birində Azərbaycandakı qədər doğmalıq duymayıb. Burada onu yaddaşlara həkk edəcək işlərə imza atmağa çalışan Hüsnan Bəy Fanani dayanmaq yox, hər zaman hərəkətdə olub yenilənməyin tərəfdarıdır...*

***Fərizə ƏHMƏDOVA,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***“Azərbaycan”***

# 3 milyon insana bəxş edilən sevinc

*Əvvəli 1-ci səh.*

### Böyük sosial islahatlar paketinin ilkin təzahürləri

Ötən il etdiyi çıxışlarda 2019-cu ilin böyük sosial islahatlar ili kimi tarixə düşəcəyi anonsunu verən Prezidentin fevral ayında böyük sosial islahatlar paketinin ilkin təzahürləri reallaşdı. Dövlət başçısı bir-birinin ardınca minimum əməkhaqqının, minimum pensiyanın, təqaüdlərin, müavinətlərin artırılması, digər ödənişlərin verilməsi istiqamətində fərman və sərəncamlar imzaladı.

Minimum əməkhaqqının, minimum pensiyanın təxminən 40 faiz artırılması 830 minə yaxın insanı əhatə etdi. Minimum əməkhaqqının məbləğinin artırılması 600 minədək insanı əhatə edir ki, onlardan dövlət sektorunda işləyən 450 min nəfərin əməkhaqqında 30 faiz, özəl sektorda işləyən 150 min nəfərin əməkhaqqında isə 25 faiz artım olub.

Prezidentin martın 9-da imzaladığı “Dövlət qulluqçularının aylıq vəzifə maaşının müəyyən edilməsi haqqında 2018-ci il 13 mart tarixli 3787 nömrəli sərəncamında dəyişiklik edilməsi barədə sərəncama əsasən dövlət qulluqçularının aylıq vəzifə maaşında “165” rəqəmləri “200” rəqəmləri ilə əvəz edildi. Həmçinin “185”, “175”, “170” və “165” rəqəmləri müvafiq olaraq “215”, “210”, “205” və “200” rəqəmləri ilə əvəz olundu.

Artımın təmin edilməsi üçün dövlət büdcəsindən illik 400 milyon manat, bu ilin 10 ayı ərzində isə 335 milyon manat əlavə vəsait ayrılacaq.

### Artan sosial müavinətlər 600 min insana şamil olundu

Sosial müavinətlərin orta hesabla 100 faiz artırılması ilə bağlı sərəncam təxminən 600 min insana şamil olundu. Onlardan 165 min 376 nəfəri ümumi xəstəlik, hərbi xidmət dövründə xəstələnmə, əmək zədəsi və peşə xəstəliyi, hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar, Çernobıl AES-də qəzanın ləğvi ilə əlaqədar səbəblərdən əlilliyi olan (əmək pensiyası almayan) vətəndaşlardır. Beləliklə, I qrup əlilliyə görə sosial müavinət (150 manat) və təqaüd (100 manat+50 manat) formasında aprelin 1-dən ümumilikdə 300 manat ödəniləcək.

Minimum pensiya məbləğinin artırılması isə 233 min pensiyaçını, o cümlədən 140 min nəfər əlilliyə görə pensiya alan vətəndaşı əhatə edəcək. Onlardan 9 min nəfərin pensiyasında 93 faiz, 26 min nəfərin pensiyasında 30 faiz, 74 min nəfərin pensiyasında 16 faiz və s. artımlar edilir. Artımın edilməsi üçün Dövlət Sosial Müdafiə Fondundan cari ilin 10 ayı (mart-dekabr) üzrə 41 milyon manat, illik isə 49 milyon manat əlavə vəsait yönəldiləcək.

### Problemli kreditlərin həlli istiqamətində verilən inqilabi qərar

Çoxmənzilli binaların sənədləşdirilməsi ilə bağlı fərman təxminən 350-400 min insanı, tələbələrin təqaüdlərinin artırılması isə 100 mindən çox tələbənin sevincinə səbəb oldu.

Digər sosialyönümlü addımlardan biri isə Prezidentin əhalinin problemli kreditlərinin həlli ilə bağlı imzaladığı fərman oldu. Dünyada analoqu olmayan bu sənəd 1 milyona yaxın insanın problemini həll edərək vətəndaşlarla banklar arasındakı narazılıqlara son qoydu.

Ümumiyyətlə, Prezident İlham Əliyevin böyük sosial paketi təqribən 3 milyona yaxın insanı əhatə edir. Bu fərman və sərəncamlar dövlətin öz vətəndaşının yanında, bütün problemlərinin həllində daim iştirakçı və yardımçı olduğunu göstərdi. Bu, bir daha Azərbaycan dövlətinin iqtisadi qüdrətini, cənab İlham Əliyevin dönməz iradəsini ortaya qoydu.

Martın 1-də isə Prezident incəsənət xadimləri ilə görüşüb onların problemlərini dinlədi və görüşdən sonra bu istiqamətdə ciddi tapşırıqlar verdi.

Göründüyü kimi, ilin əvvəlindən ölkəmizdə sosial sahədə qəbul olunmuş qərarlar, keçirilən görüşlər, atılan addımlar öz miqyasına, əhatə dairəsinə görə sözün əsl mənasında inqilabi qərarlardır. Çünki qısa müddət ərzində bu qədər sosialyönümlü qərarların verilməsi dünyada görünməmiş bir hadisədir. Bir tərəfdən düşünülmüş və ardıcıl olaraq həyata keçirilən islahatların nəticəsi, digər tərəfdən isə ölkə Prezidentinin cəsarətli və inamlı addımları ölkə vətəndaşlarının gələcəyinə hesablanmış qətiyyətli siyasətinin təzahürüdür.

### Xalqa sədaqətli lider örnəyi

Ölkə əhalisinin yaşayış səviyyəsinin və sosial rifahının yüksəldilməsi hər zaman Prezident İlham Əliyevin apardığı siyasətin başlıca prioritetləri olub. Dövlət başçısının ötən 15 ili əhatə edən fəaliyyətinin təhlili göstərir ki, o, sosial məsələlərin həllinə həmişə xüsusi maraqla yanaşıb, aztəminatlı ailələrin yaşayış səviyyəsinin yaxşılaşdırılmasına davamlı dəstək göstərib. İmzaladığı fərman və sərəncamlar əsasında pensiya, ünvanlı yardım, əlilliyə görə müavinətlərin verilməsi və məşğulluq sahələrində şəffaflığın və sosial ədalətin tam təmin olunması ilə bağlı mühüm addımlar atılıb.

Dünyada çox az ölkə tapılar ki, sosial siyasətin təzahür formalarının müxtəlifliyinə görə Azərbaycanla müqayisə oluna bilsin. Təkcə bir fakta nəzər yetirsək, bunu aydın şəkildə görə bilərik. Heç bir ölkədə təbii fəlakət nəticəsində sakinlər üçün qəzalı duruma düşən evlər sökülüb yerində cəmi 1 ay ərzində pulsuz mənzil tikilmir. Yalnız sığortalanmış evlərə görə məyyən miqdarda kompensasiyalar ödənilir. Amma cənab İlham Əliyev respublikamızın şimal bölgəsində baş verən zəlzələ nəticəsində qəzalı duruma düşmüş evlərin hamısını söküdürüb yerində daha möhtəşəm ev tikdirir.

Atılan addımlar Prezident İlham Əliyevin çoxşaxəli sosial siyasətinin təzahür formalarının yalnız bir hissəsidir. Görünən odur ki, xalqın rifah halının daha da yaxşılaşdırılması üçün dövlət başçısının böyük sosial islahatlar paketi çərçivəsində hələ çox qərarlar qəbul olunacaq. Ona görə də əminliklə deyə bilərik ki, 2019-cu il Azərbaycan tarixinə ən böyük sosial islahatlar ili kimi yazılacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

# Mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul ediblər

Energetika naziri Pərviz Şahbazov Bakı, Sumqayıt şəhərləri, Şəmkir və Quba rayonlarından daxil olmuş müraciətlər əsasında nazirlikdə vətəndaşları qəbul edib.

Qəbul zamanı vətəndaşların müraciətləri dinlənilib və qaldırılan məsələlərin hərtərəfli öyrənilməsi və qanunvericiliyə uyğun tədbirlərin görülməsi üçün nazirliyin aidiyyəti struktur bölmələrinə və məsul şəxslərinə müvafiq tapşırıqlar verilib. Nazirliyin fəaliyyətinə aid olmayan müraciətlərin isə qeydiyyata alınaraq müvafiq qurumlara çatdırılması üçün göstəriş verilib.

***

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı martın 12-də Şamaxı, Ağsu, İsmayıllı və Qobustan rayonlarından olan vətəndaşları qəbul edib.

Heydər Əliyev Mərkəzində keçirilən qəbula gələn vətəndaşların müraciətləri əsasən dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması, məscidlərin təmiri, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, dini icmaların zəruri dini ədəbiyyatla təmin edilməsi və sair məsələlərlə bağlı olub.

Dövlət komitəsinin sədri Mübariz Qurbanlı vətəndaşların müraciətlərini diqqətlə dinləyərək bəzilərinin həlli, bəzilərinin isə araşdırılması üçün tapşırıq verib. Bir sıra müraciətlər yerindəcə həll edilib.

***AZƏRTAC***

# Dünya liderləri ilə bir sıradayıq

## Azərbaycan Respublikasının inklüziv inkişafın idarə edilməsində dünya liderliyini beynəlxalq təşkilatların hesabatları da təsdiq edir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş Nazirlər Kabinetinin iclasındakı proqram xarakterli çıxışında, "Real" televiziyasına verdiyi müsahibədə ölkənin sürətli inkişafı, bu prosesin innovativliyi və eyni zamanda sosialyönümlülüyünü təmin edən yeni idarəetmə texnologiyalarının tətbiqi, bu yanaşmaların nəticələrinə diqqəti cəlb etdi.



Beynəlxalq təşkilatlar tərəfindən aparılan təhlillər və son illər dərc edilən rəsmi hesabatlar da bunun sübutudur. Elə bu yaxınlarda dərc edilmiş və dünya ölkələrində əlverişli biznes mühitinin təşkilinə həsr olunmuş "Doing Business" hesabatında Azərbaycanın dünya ölkələri arasında 28-ci yerə qalxması da bu gerçəklikdən xəbər verir. Əgər nəzərə alınsa ki, bir neçə il öncə ölkəmiz bu siyahıda 90-96-cı yerlərdə idi, aydın olur ki, bu sıçrayışın arxasında güclü siyasət və yaradıcılıqla həyata keçirilən praktiki inkişaf strategiyası durur. Bununla yanaşı, BMT, Dünya Bankı, digər beynəlxalq inkişaf təşkilatlarının hesabatlarında, Azərbaycan Respublikasının insan potensialına əsaslanan davamlı inkişafına dair sənədlərdə ölkəmizin dünyada mövqelərinin güclənməsi ilə bağlı yeni məlumatlar dərc edilməkdədir. Ölkədə sənaye, kənd təsərrüfatı və xidmət sahələrinin sürətli inkişafı, iqtisadiyyatın artım tempinə görə yüksək reytinqi son on beş ildə bu göstəricilərin rekord səviyyəsinə qalxması də göz qabağındadır. Elm, təhsil və mədəniyyətin inkişaf etməsi də sözügedən proseslərə təkan verir.

Lakin bütün bu sahələrdə əldə edilmiş nailiyyətlər yalnız vasitə kimi çıxış edir. Məqsəd isə ölkə Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan vətəndaşının daim yüksələn rifahı və onun təhlükəsizliyidir. Son zamanlar ölkə Prezidenti İlham Əliyevin sərəncamlarına əsasən minimal əməkhaqqının, təqaüdlərin, xüsusi qayğıya ehtiyacı olan təbəqələr üçün ayrılan maddi yardımların əhəmiyyətli dərəcədə yüksəldilməsi, vətəndaşların banklara olan borclarla əlaqədar problemlərinin həllinə yönəldilmiş tədbirlər ölkədə sosial siyasətin dövlətin əsas prioriteti olmasını göstərir.

Son 15 ildə həyata keçirilən siyasət nəticəsində, beynəlxalq təşkilatların hesabatlarına əsasən, Azərbaycan Respublikası iqtisadi, sosial və humanitar sahələrdə yüksək nəticələr əldə edib. Bunun məntiqi yekunu kimi ölkə dünyanın birinci dərəcəli prioriteti olan və sosial sahəyə xüsusi dəyər verən inklüziv inkişaf sahəsində dünya liderləri səviyyəsinə qalxmışdır. İnklüziv inkişaf dedikdə dövlətin tərəqqisinin elə yolu başa düşülür ki, ölkənin hərtərəfli inkişafı təmin olunur və bu prosesin müsbət nəticələrini bütün vətəndaşlar hiss edir. Ölkənin inklüziv inkişafının səviyyəsi beynəlxalq təşkilatlar tərəfindən xüsusi indeks vasitəsilə dəyərləndirilir. İndeksin hesablanması isə bir sıra göstəricilərə əsaslanır *(şəkil 1)*.

Dünya ölkələrində inklüziv inkişafın vəziyyəti 2018-ci ildə Davos Dünya İqtisadi Forumu tərəfindən təhlil edilmişdir. Bu qurum tərəfindən təqdim edilmiş hesabata əsasən Azərbaycan Respublikasının inklüziv inkişaf indeksi 4,69-a bərabərdir və ölkəmiz keçid iqtisadiyyatına malik ölkələr arasında bu göstəriciyə görə üçüncü yeri tutur. Bu qrupa daxil olan ölkələr arasında Azərbaycan Avropa İttifaqının, zəngin ölkələri birləşdirən İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının, "Böyük iyirmilik" (G20) qrupunun üzvləri olan bir çox dövlətlərdən irəlidədir. Qeyd edilməlidir ki, bütün bu ölkələrin iqtisadi imkanları Azərbaycandan xeyli üstündür *(cədvəl 1).*




*Şəkil 1. İnklüziv inkişaf və onun hesablanmasında istifadə olunan əsas göstəricilər*

| Ölkə | İnklüziv inkişaf indeksi | İnklüziv inkişafa görə tutduğu yer | İqtisadi imkanına görə (adambaşına ÜDM) tutduğu yer | İqtisadi imkan və inklüziv inkişaf arasında fərq |
|---|---|---|---|---|
| Litva | 4,86 | 1 | 1 | 0 |
| Macarıstan | 4,74 | 2 | 4 | + 2 |
| Azərbaycan | 4,69 | 3 | 26 | +23 |
| Latviya | 4,67 | 4 | 5 | +1 |
| Polşa | 4,61 | 5 | 2 | -3 |
| Xorvatiya | 4,48 | 7 | 6 | -1 |
| Rumıniya | 4,43 | 10 | 15 | +5 |
| Bolqarıstan | 4,41 | 11 | 18 | +7 |
| Türkiyə | 4,28 | 16 | 7 | -9 |
| Rusiya | 4,20 | 19 | 9 | -10 |

*Cədvəl 1. Keçid iqtisadiyyatına malik olan ölkələrin iqtisadi və inklüziv inkişaf göstəriciləri. Məlumat mənbəyi: Dünya İqtisadi Forumu, Davos, 2018*

Cədvəldən göründüyü kimi, Litva keçid iqtisadiyyatına malik olan ölkələr arasında inklüziv inkişaf göstəricisinə görə birinci yerdədir. İqtisadi imkanları - adambaşına ümumi daxili məhsulun həcminə görə də bu ölkə göstərilən qrupda birincidir. Ölkə öz iqtisadi imkanlarını düzgün qiymətləndirib və səfərbər edərək, inklüziv inkişaf sahəsində bu qrupda birinci ola bilib. İqtisadi imkanlarına görə bu qrupda dördüncü yerdə olan Macarıstan mövcud və nisbətən məhdud imkanlarını səfərbər etməklə qrupda inklüziv inkişaf göstəricilərinə görə ikinci yerə qalxıb. Bu qrupda iqtisadi imkanları ikinci olan Polşa isə inklüziv inkişaf göstəricisinə görə yalnız beşinci, öz imkanlarından 3 pillə aşağı yerdə qərarlaşıb.

Dünya İqtisadi Forumunun 2018-ci ilin hesabatında təqdim olunmuş məlumatların təhlilindən aydın olur ki, ölkənin hərtərəfli tərəqqisini təmin edən və bütün əhalinin rifahına müsbət təsir göstərən inklüziv inkişaf naminə iqtisadi imkanlarından dünyada ən optimal istifadə edən Azərbaycan Respublikasıdır. İqtisadi imkanlarına - adambaşına ümumi daxili məhsulun həcminə görə Azərbaycan Respublikası bu qrupda 26-cı yerdədir. Buna baxmayaraq, davamlı inklüziv inkişaf göstəricisinə görə ölkə 3-cü olub, yəni öz imkanından 23 pillə yüksək yerdə qərarlaşıb. Bu, şübhəsiz ki, ölkə Prezidenti İlham Əliyev tərəfindən tətbiq olunan innovativ idarəetmə texnologiyalarının nəticəsidir. Davamlı inklüziv inkişaf sahəsində yüksək nailiyyətlərin əldə edilməsi yalnız güclü iqtisadi və sosial siyasətin həyata keçirilməsi şəraitində mümkündür. Uğurlu sosial siyasətin planlaşdırılması və həyata keçirilməsi ölkənin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın məqsədyönlü fəaliyyəti ilə bağlıdır.

Davos Dünya İqtisadi Forumunun hesabatının təhlili göstərir ki, Azərbaycanın inklüziv inkişaf göstəriciləri iqtisadi inkişafı çox yüksək səviyyədə olan bir sıra ölkələrin müvafiq göstəricilərindən də yuxarıdır. Azərbaycan Respublikasının inklüziv inkişaf indeksi iqtisadi cəhətdən daha çox inkişaf etmiş ABŞ, Yaponiya, İtaliya, İsrail, İspaniya, Portuqaliya, həmçinin Türkiyə, Rusiya və başqa ölkələrin inkişaf indekslərini geridə qoyur *(şəkil 2)*. Bu o deməkdir ki, Azərbaycan Respublikası mövcud iqtisadi imkanlarından dövlətin hərtərəfli inkişafı və əhalinin rifahının yüksəldilməsi üçün göstərilən ölkələrdən daha səmərəli istifadə edir. Yaranmış vəziyyət, eyni zamanda dövlət kadr siyasətinin müasir tələblərlə ayaqlaşmasından xəbər verir.




*Şəkil 2. Azərbaycan Respublikası və iqtisadi inkişafda yüksək nəticələr əldə etmiş ölkələrin inklüziv inkişaf indeksləri. Məlumat mənbəyi: Dünya İqtisadi Forumu, Davos, 2018*

Daha az vəsait sərf etməklə daha yüksək nəticələr, bir qayda olaraq, səmərəli dövlət idarəçiliyi, bu prosesdə yeni prinsiplərin və yeni texnologiyaların istifadəsi nəticəsində əldə edilə bilir. Azərbaycan Respublikasında davamlı inklüziv inkişaf sahəsində qazanılmış uğurlar ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və Prezident İlham Əliyev tərəfindən yaradıcılıqla inkişaf etdirilən, dərindən düşünülmüş dövlət idarəçiliyi strategiyasının reallaşdırılmasının nəticəsidir. Bu strategiyanın həyata keçirilməsi Azərbaycan Respublikasının beynəlxalq təşkilatlar tərəfindən nəzərə alınan bütün göstəricilər üzrə əhəmiyyətli tərəqqiyə nail olmasına yol açıb. Son on beş il ərzində əhalinin gəlirləri, məşğulluq səviyyəsi və rifahı əhəmiyyətli dərəcədə yüksəlib, resursların istifadəsinin səmərəliliyi artıb, qlobal iqlim dəyişikliklərinə təsirlər azaldılıb, ölkəmizin xarici borcu optimal səviyyədə saxlanılıb, sağlamlıq göstəriciləri yaxşılaşıb, əhalinin optimal demoqrafik strukturu formalaşıb, yoxsulluq səviyyəsi və gəlirlərin əhali arasında bölgüsünün xarakteri yüksək beynəlxalq standartlara uyğunlaşdırılıb. Bu sahədə olduqca qısa bir dövrdə yüksək nəticələrin əldə edilməsində ölkə Prezidenti İlham Əliyev tərəfindən dövlət idarəçiliyində innovativ texnologiyaların işlənməsi və tətbiqi, o cümlədən sinergetik, komplementar və kompensasion texnologiyalar kompleksinin tətbiqinin həlledici rolu var.

Qeyd edilməlidir ki, Azərbaycan Respublikası dünyada davamlı inklüziv cəmiyyətin formalaşması naminə iqtisadi imkanlarından ən optimal istifadə edən ölkədir. Bu, şəkil 3-də təqdim olunmuş məlumatlardan aydın olur. Şəkildə təqdim olunmuş ölkələr üç qrupa aiddir. Birinci, piramidanın ən aşağı hissəsində mənfi (-) göstəricilərə malik olan ölkələr haqqında məlumatlar təqdim edilmişdir. Bu ölkələr davamlı inklüziv inkişaf edən cəmiyyətin formalaşması baxımından öz iqtisadi imkanlarından tam istifadə edə bilməmişlər. Bu ölkələr arasında çox yüksək iqtisadi imkanlara malik olan ölkələr də var. Məsələn, inklüziv inkişaf göstəricilərinə görə ABŞ öz iqtisadi imkanlarından 14, Rusiya 10, Türkiyə isə 9 pillə aşağı yerlərdə qərarlaşıblar *(cədvəl 1)*.

Piramidanın ikinci səviyyəsində sıfır (0) qrupuna daxil olan ölkələr yer alıb. Bu qrupda təmsil olunan ölkələr inklüziv inkişafın idarə edilməsində öz iqtisadi imkanları çərçivəsində hərəkət ediblər. Dünya reytinqlərində onlar adambaşına gəlir və inklüziv inkişaf göstəricilərinə görə eyni yerdədirlər. Bu ölkələrə Fransa, İsveç, Danimarka, Litva və digərləri aiddir *(şəkil 3)*.




*Şəkil 3. Dünya ölkələrində inklüziv inkişaf sahəsində iqtisadi imkanlardan müxtəlif dərəcədə istifadə edilməsi. Məlumat mənbəyi: Dünya İqtisadi Forumu, Davos, 2018*

Şəkil 3-də üçüncü qrupa inklüziv inkişaf sahəsində öz iqtisadi imkanlarından daha çox istifadə edən ölkələr daxil edilmişdir. Bu ölkələr öz növbəsində 5 yarımqrupa ayrılıb. Birinci yarımqrupda öz iqtisadi imkanlarından 5 pilləyə qədər qalxa bilmiş ölkələr təmsil olunur. Bunların arasında Almaniya, Avstriya, Finlandiya, Belçika və bir sıra başqa ölkələr göstərilə bilər. İkinci yarımqrupda öz iqtisadi imkanlarından 6-10 pilləyə qədər qalxa bilmiş ölkələr bir araya gətirilib. Bu ölkələr Yeni Zelandiya, Koreya Respublikası, İslandiya, Sloveniya və digərləridir. Üçüncü yarımqrupda inklüziv inkişaf sahəsində öz iqtisadi imkanlarından 10-15 pillə yuxarı qalxa bilən ölkələrin qruplaşması nəzərdə tutulmuşdur. Lakin bu qrupda yalnız bir ölkə - Çexiya Respublikası yer ala bilib. Bu ölkə inklüziv inkişaf sıralanmasında öz imkanından 13 pillə yuxarıda qərarlaşıb. Daha yüksək növbəti (+16-20) yarımqrupda heç bir ölkə beynəlxalq təşkilatlar tərəfindən qeydə alınmayıb. Nəhayət, ən yüksək göstəriciləri olan yarımqrupda (+20-25) yalnız Azərbaycan Respublikası təmsil olunmuşdur ki, bu ölkə inklüziv inkişaf sahəsində öz iqtisadi imkanlarından 23 pillə yüksəkdə yer tutub.

Dünya İqtisadi Forumunun hesabatında dünyanın 107 ölkəsində inklüziv inkişaf və onun davamlılığı haqqında məlumatlar təqdim edilmişdir. Azərbaycan bu sənəddəki göstəricilərə görə keçid iqtisadiyyatına malik ölkələr arasında üçüncü olsa da, öz iqtisadi imkanlarından inklüziv inkişaf naminə səmərəli istifadəyə görə dünyada birincidir. Bu, eyni zamanda, beynəlxalq təşkilatların sənədlərinin təsviri və təhlili arasında fərqin göstəricisidir. Qeyd olunan yüksək nailiyyət ölkə Prezidenti İlham Əliyevin tətbiq etdiyi innovativ dövlət idarəetmə texnologiyalarının nəticəsidir. Bu innovativ texnologiyaların öyrənilməsi və geniş tətbiqi inklüziv inkişafın gələcək nəsillər üçün də davamlı olmasının vacib şərtidir.

***Urxan ƏLƏKBƏROV,***
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik***

# Həyata keçirilən sosial siyasət insanların güzəranını yaxşılaşdırır

*Daim insanları düşünən və onların güzəranlarının yaxşılaşdırılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirən Prezident İlham Əliyevin son iki ayda imzaladığı sərəncamlar onun hər zaman ölkə vətəndaşlarının yanında olduğunu bir daha sübut etdi. Tələbədən tutmuş təqaüdçüyədək hamıya qayğı göstərilir. Şəhid ailələrinə verilən birdəfəlik yardımlar insanlarda ruh yüksəkliyi yaratmaqla onlarda vətənpərvərlik hissini daha da gücləndirdi. Bunlar vətəndaşlarda böyük razılıq doğurdu.*



Sakinlərlə söhbət zamanı bunu onların öz dillərindən də eşitdik. İlk müsahibimiz Azərbaycan Dövlət Aqrar Universitetinin professoru, kənd təsərrüfatı elmləri namizədi **Firudin Cəfərov** oldu. O dedi ki, əhalinin sosial müdafiəsi ilə bağlı qəbul olunmuş qərarlar dövlət başçısının sosial siyasətinin başlıca istiqamətlərindəndir. Şəhid ailələrinin, əlil olmuş şəxslərin, eləcə də qaçqın və məcburi köçkünlərin mənzillərlə təmin olunması, müharibədə əlil olmuş şəxslərə avtomobillərin verilməsi, respublikamızın ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı 11 min manat birdəfəlik yardımın verilməsi və digər bu kimi addımlar dövlət başçısının həyata keçirdiyi sosial siyasətin mühüm tərkib hissəsidir. Bu o deməkdir ki, Azərbaycan Prezidentinin sosial siyasətinin mərkəzində ölkə vətəndaşları dayanır.



**Şabər Bəşirov** Kəlbəcər sakinidir. O, Gəncədəki məcburi qaçqın və köçkünlər üçün salınmış qəsəbədə məskunlaşıb. Kəlbəcər uğrunda gedən döyüşlərdə vuruşub, odun-alovun içindən keçib. Qardaşı Hafiz Bəşirov Kəlbəcərin Narınclar kəndi uğrunda gedən döyüşdə şəhid olub. Rayon işğal olunanda Göygöl rayonuna pənah gətirərək Gəncə Dövlət Universitetinin tələbə yataqxanasında məskunlaşıb. Sonra Gəncədə məcburi köçkün ailələri üçün salınmış qəsəbədə ailəsinə ikiotaqlı mənzil veriblər. Söhbət zamanı Şabər dedi ki, indi hər cür şəraiti olan evimiz var. Dolanışığımız da pis deyil. Var olsun dövlətimiz. Hər ay təqaüd alırıq. Bu yaxınlarda Prezident təqaüdü artıraraq 300 manata çatdırdı. Bundan başqa, 11 min manat birdəfəlik yardımdan da yararlanacağıq.

Şabər Bəşirov bir məsələyə də toxundu. Dedi ki, ölkəmiz gündə-günə inkişaf edir. İqtisadiyyatımız yüksəldikcə həyat tərzimiz də yaxşılaşır. Prezidentin siyasi iradəsi və gərgin əməyi sayəsində yeni müəssisələr açılır, insanların məşğulluğu təmin edilir. İndi Azərbaycan 20 il əvvəlki Azərbaycan deyil. İqtisadiyyatımız inkişaf etdikcə ordumuz da güclənir, vətənpərvərlik hissi yüksəlir. Ən müasir silahlarla təmin olunmuş Azərbaycan Ordusu işğalda olan torpaqlarımızı azad etməyə qadirdir. Bəs, görəsən, bəzi müxalif qüvvələr niyə bu inkişafa xor baxırlar?! Nə üçün uğurlarımıza sevinmək əvəzinə Azərbaycanı gözü götürməyən xarici havadarlarına qoşulub ölkəmizin əleyhinə fəaliyyət göstərirlər?! Beləleri bilməlidirlər ki, ölkə rəhbərinin arxasında xalq dayanıb. Xalq ağı qaradan seçməyi bacarır. Xalq əmin-amanlıq yaradan, onun sosial vəziyyətini gündən-günə yaxşılaşdırmağa yönələn qərarlar qəbul edən Prezident İlham Əliyevi dəstəkləyir.



**Sənan Hacıyev** Gəncə Regional Mədəniyyət İdarəsinin rəhbəridir. Bu sahədə böyük təcrübəsi var. Deyir ki, işindən həmişə zövq alıb. İndi Nizami yurdu sanki muzeylər şəhərinə çevrilib. Şəhərə gələn xarici və yerli turistlərə göstərməyə çox sayda mədəniyyət obyektləri var. Bütün bunların çoxu son 15 ildə qazanılan uğurların nəticəsidir. Xüsusilə dövlət başçısı İlham Əliyevin, eləcə də Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısı sayəsində şəhərimiz durmadan inkişaf edib, çoxlu sayda yeni mədəniyyət obyektləri istifadəyə verilib. Bu inkişafın nəticəsidir ki, bir çox beynəlxalq tədbirlərə də evsahibliyi edir. Xarici qonaqlar yenidən qurulan Nizami Gəncəvi məqbərəsini, Məhsəti Gəncəvi, Mirzə Şəfi Vazeh müzeylərini böyük maraqla ziyarət edirlər.

Gəncədə aparılan abadlıq və yenidənqurma işləri çərçivəsində tarix-memarlıq abidələri də əsaslı şəkildə təmir edilmiş, yeni mədəniyyət obyektləri yaradılmışdır. Ölkə rəhbərinin, eləcə də Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü və qayğısı ilə Nəriman Nərimanov parkı yenidən qurulmuş, Gəncə çayı sahilində "Xəmsə" memarlıq kompleksi, Dövlət bayrağı meydanı yaradılmış, Cavad xan küçəsində yenidənqurma işləri aparılmış, "Çökək hamam" tarixi-memarlıq abidəsində təmir-bərpa işləri görülmüşdür. Bundan başqa, "Zərrabi", "Şərəfxanlı" abidələri əsaslı şəkildə təmir edilmiş, Heydər Əliyev park kompleksi, Gəncə Qoşa Qala Arxeologiya və Etnoqrafiya Muzey abidə kompleksi, Gəncə çayının sağ sahil boyu park-bulvar kompleksi, Miniatür Kitab Muzeyinin filialı, Avropa Gənclər Paytaxtı parkı və Gəncə Dövlət Filarmoniyasının yeni binası istifadəyə verilmişdir.

Bu günlərdə dövlət başçısı İlham Əliyevin və ölkənin birinci xanımı Mehriban Əliyevanın mədəniyyət xadimləri ilə keçirdiyi görüşdə də mədəniyyət və incəsənət sahəsində əldə olunan uğurlar və qarşıda duran vəzifələrlə bağlı müzakirələrin aparılması bir daha sübut etdi ki, ölkə rəhbəri respublikamızın bütün sahələri ilə maraqlanır. Görüşdə Prezident İlham Əliyev qaldırılan bütün məsələlərin həll ediləcəyini, belə görüşlərin müntəzəm keçirilməsinin vacibliyini bildirdi. Hamı bir daha əmin oldu ki, Prezident və ölkənin birinci xanımı Azərbaycan mədəniyyətinin inkişafı və təbliği üçün əllərindən gələni edirlər.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Gənclər ağı qaradan yaxşı seçirlər



Qurbanlar bahasına qazanılmış dövlət müstəqilliyinin bərpasından sonrakı ilk dövrlərdə ölkədə yaranmış siyasi hərc-mərcliyin yaratdığı ağır ictimai şərait gənclərin böyük əksəriyyətini keçmiş sovet respublikalarına və digər xarici ölkələrə üz tutmağa, öz gələcəklərini vətəndən uzaqlarda qurmağa vadar etmişdi. Məhz belə bir şəraitdə ulu öndər Heydər Əliyev gəncləri təşkilatlandırmaq, onların fəaliyyətini daha səmərəli və sistemli şəkildə qurmaq üçün 1994-cü il 26 iyul tarixində Gənclər və İdman Nazirliyinin yaradılması barədə fərman imzaladı. Bu, dövlət gənclər siyasətində dönüş nöqtəsi oldu.

Bunun ardınca 1996-cı il 2 fevral tarixində xalqımızın ümummilli liderinin təşəbbüsü və təşkilatçılığı ilə Azərbaycan Gənclərinin Birinci Forumu keçirildi. Forumda ulu öndərin proqram xarakterli nitqində Azərbaycan gəncliyinin uğurlu yüksəliş yolunun aydın istiqamətləri öz əksini tapdı. Heydər Əliyevin dəyərli tövsiyələrini dövlətin idarə olunmasında prioritet istiqamət kimi qəbul edən Prezident İlham Əliyevin gəncliyin inkişafına göstərdiyi diqqət də bəhrəsini verməkdədir. Gənclərin hərtərəfli inkişafını təmin edən proqramların qəbul olunması, gənclərin mühüm postlara irəli çəkilməsi, əksər şəhər və rayonlarda olimpiya idman komplekslərinin, Gənclər mərkəzlərinin istifadəyə verilməsi gənclərin kamil şəxsiyyət, fəal vətəndaş kimi formalaşmasına göstərilən dövlət qayğısının ifadəsidir.

Mingəçevir Gənclər və İdman İdarəsi də dövlət gənclər siyasətini reallaşdıran dövlət orqanı olaraq qarşıya qoyulan vəzifə və tapşırıqları layiqincə yerinə yetirməyə çalışır. Mingəçevir gəncləri Prezidentin diqqət və qayğısından çox məmnundurlar. Nur şəhərinin gəncləri dövlət başçısının uğurlu siyasətini birmənalı şəkildə dəstəkləyir və müdafiə edirlər. Azərbaycanın hər ötən gün dünyada artan nüfuzu, regionda möhkəmlənən mövqeləri yaxın-uzaq düşmənlərimizi ciddi narahat edir, bədxahlar bizi zəifləmək üçün çirkli oyunlar qurmağa çalışırlar. Bu, antiazərbaycançı şəbəkənin israrla həyata keçirmək istədiyi məkrli plandır. Təəssüf ki, bunun mahiyyətini anlamayan bəzi soydaşlarımız, xüsusilə müəyyən qrup gənclər fərqinə varmadan düşmən dəyirmanına su tökür, ölkəmizi istəməyənlərin əlində alətə çevrilirlər. Görünən reallıq isə odur ki, hüquqazidd çağırışları ilə ölkədə sabitliyi pozmağa çalışan ifrat radikal müxalifət qüvvələri 1990-cı illərdə hökm sürmüş qarşıdurmanı qaytarmaq istəyir. Keçirilən mitinqlərdə irəli sürülən şüarlar, səslənən çağırışlar həyat gerçəkliklərindən qaynaqlanmayan ucuz pafosdan başqa bir şey deyildir.

Günümüzün qürur və məmnunluq doğuran reallığı odur ki, xalqın, xüsusilə gəncliyin həlledici gücə malik hissəsi Prezident İlham Əliyevin ətrafında sıx birləşib. Torpaqlarımızın 20 faizinin işğal altında olduğu bir vaxtda qüvvələri parçalamağa, ölkədə qarşıdurma yaratmağa damarında azərbaycanlı qanı olan kimsənin haqqı yoxdur. Bizim ümumi düşmənimiz erməni işğalçılarıdır. Bütün qüvvələri birləşdirib torpaqlarımızı işğaldan azad etməliyik. Daxildə cəbhə açıb baş qatmaq əslində düşmənə işləməkdir. Biz gənclər artıq ağı qaradan yaxşı seçirik. Gənclər 1990-cı illərin ab-havasını geri qaytarmaq, xalqı çaşdırmaq istəyənlərə heç zaman meydan verməyəcəklər.

***Anar ŞAHBAZOV,***
***Mingəçevir Gənclər və İdman İdarəsi rəisinin müavini***

# *Genişmiqyaslı təlimlər:* reaktiv artilleriya divizionları atəş mövqelərini tutublar

Genişmiqyaslı təlimlərə cəlb edilən raket və artilleriya qoşunlarının bölmələri marş keçirərək atəş mövqelərini tutublar.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təlimlərin məqsədinə uyğun olaraq ehtiyat atəş mövqelərinə çıxarılan reaktiv artilleriya divizionları qoşunların hücumuna praktiki atəşlə dəstək vermək və şərti düşmən hədəflərinə atəş zərbələrinin endirilməsi üzrə tapşırıqları icra etməyə hazırlaşır.





# Əməliyyat-taktiki raket bölmələri təlimə cəlb edilib

Müxtəlif qoşun növlərinin cəlb edilməsi ilə keçirilən təlimlər davam edir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, keçirilən genişmiqyaslı təlimin niyyətinə uyğun olaraq, əməliyyat-taktiki raket bölmələri daimi dislokasiya məntəqələrini həyəcan siqnalı ilə tərk edərək təyin olunan marşrutlarla marş keçiriblər.

Start mövqelərini tutan bölmələr planlı və plandan kənar şərti düşmən hədəflərinə raket zərbələrinin endirilməsi üzrə döyüş şəraitinə maksimal şərtlərdə tapşırıqları icra edir.





# Təlimlər zamanı döyüş aviasiya vasitələrinin yerdəyişməsi həyata keçirilib

Genişmiqyaslı təlimlərin planına əsasən, təlimlərdə iştirak edən döyüş aviasiya vasitələrinin yerdəyişməsi həyata keçirilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, döyüşə hazır vəziyyətə gətirilən təyyarə və helikopterlər ehtiyat aerodromlara və meydançalara çıxarılıb.

Hava hücumundan müdafiə vasitələrinin ərazidə yerləşdirilməsi başa çatdırılıb.





# Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının məsul işçilərinin respublikanın bir sıra şəhər və rayonlarında vətəndaşların qəbulu cədvəli

**14 mart 2019-cu il**

1. Bakı şəhəri Yasamal rayonu
2. Mingəçevir şəhəri
3. Ağdam rayonu
4. Ağdaş rayonu
5. Biləsuvar rayonu
6. Cəbrayıl (Biləsuvar) rayonu
7. Hacıqabul rayonu
8. Kürdəmir rayonu
9. Qazax rayonu
10. Qəbələ rayonu
11. Quba rayonu

**15 mart 2019-cu il**

1. Bakı şəhəri Binəqədi rayonu
2. Yevlax rayonu
3. Ağstafa rayonu
4. Bərdə rayonu
5. Cəlilabad rayonu
6. Göyçay rayonu
7. Xaçmaz rayonu
8. Xocavənd (Beyləqan) rayonu
9. Neftçala rayonu
10. Oğuz rayonu
11. Ucar rayonu

**Qeyd:** *Qəbullar şəhər və rayonlarda saat 10:00-da başlayır.*

# MN: "Qoşunların təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb"

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, martın 12-də Füzuli rayonu ərazisində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Saymon Tiller və Martin Şuster keçiriblər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Mixail Olaru və Gennadi Petrika aparıblar.

# Peşə təhsili alan əlillərin təhsil haqqını dövlət ödəyəcək

Dünən Milli Məclisin Əmək və sosial siyasət komitəsinin iclası keçirildi. Komitənin sədri Hadi Rəcəbli əvvəlcə ölkəmizdə sosial sahədə görülən islahatlardan söz açaraq bildirdi ki, Prezident İlham Əliyev 2019-cu ili sosial təminat məsələləri baxımından önəmli il adlandırıb və bu istiqamətdə görülən işlər həqiqətən də xalqın rifah halının yüksəldilməsinə xidmət edir.

Dövlət başçısının tapşırığı ilə 3 yaşa qədər uşaqlara müavinətin artırılması məsələsinə də baxılacağını söyləyən Hadi Rəcəblinin sözlərinə görə, bununla bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tapşırıq verilib, müvafiq addımlar atılır.

Bu məsələ ilə bağlı mövqeyini bildirən deputat Rauf Əliyev Qarabağ əlillərinin və şəhid ailələrinin problemlərinə toxunaraq həmkarlarını həmin şəxslərlə bağlı məsələlərdə daha diqqətli olmağa çağırdı.

Komitənin sədri Hadi Rəcəbli də əlavə etdi ki, şəhid ailələrinin, eləcə də onların övladlarının maddi vəziyyətinin yaxşılaşdırılması komitənin fəaliyyətinin əsas istiqamətidir.

Sonra gündəliyə daxil olan beş məsələyə baxıldı.

İclasda "Kənd təsərrüfatı kooperasiyası haqqında", "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında", "Turizm haqqında" və "Elektrik istilik stansiyaları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə layihə birinci oxunuşda müzakirə olundu. Bildirildi ki, "Turizm haqqında" qanuna təklif olunan dəyişikliklərə əsasən, 300 nəfərdən çox tutumu olan turizm və rekreasiya obyektlərinin layihələrinə dair "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" qanunda nəzərdə tutulmuş qaydada ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədi hazırlanmalı, həmin sənədin dövlət ekoloji ekspertizası keçirilməlidir.

Sonra Əmək, Vergi və İnzibati Xətalar məcəllələrinə, birinci oxunuşda "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında", "Dövlət rüsumu haqqında", "Azərbaycan Respublikasında dövlət dili haqqında" qanunlara dəyişiklik edilməsi haqqında qanun layihəsinə baxıldı. Qeyd olundu ki, dəyişikliklərin əksəriyyəti uyğunlaşdırma xarakteri daşıyır.

"Dövlət rüsumu haqqında" qanuna təklif edilən dəyişikliyə görə, təhsil müəssisələrinin akkreditasiyadan keçməsinə görə dövlət rüsumu müəyyənləşdirilərək 20 manat təyin olunub.

Əmək, Vergi və Cəzaların İcrası məcəllələrinə dəyişiklik edilməsi barədə qanun layihəsi isə "Peşə təhsili haqqında" qanuna uyğunlaşdırma məqsədi daşıyır.

Daha sonra "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında", "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Həmkarlar ittifaqları haqqında", "Dövlət əmlakının özəlləşdirilməsi haqqında", "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında", "Dövlət rüsumu haqqında", "Mühasibat uçotu haqqında", "Ədliyyə orqanlarında qulluq keçmə haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Hərbi vəzifə və hərbi xidmət haqqında", "Lisenziyalar və icazələr haqqında" və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi müzakirə edildi.

Qeyd edildi ki, "Əlilliyi olan şəxlərin hüquqları haqqında" qanuna təklif edilən dəyişikliyə görə, peşə təhsili alan əlillərin təhsil haqqı dövlət tərəfindən ödəniləcək.

Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini Musa Quliyev, deputatlardan Elmira Axundova, Jalə Əliyeva qanun layihələri barədə fikirlərini bildirdilər. Musa Quliyev əlillərlə bağlı qanun layihəsini müsbət qiymətləndirərək vurğuladı ki, həmin şəxslərin təhsilini bitirdikdən sonra işlə təmin olunmasına da xüsusi nəzarət olmalıdır. Deputat İlham Məmmədov isə əlilliyi olan şəxslər üçün ixtisaslaşmış iş yerlərinin yaradılması təklifi ilə çıxış etdi.

Komitənin sədri Hadi Rəcəbli səsləndirilən fikirlərə münasibət bildirərək söylədi ki, əlil vətəndaşları işə götürən sahibkarlara da müəyyən güzəştlər tətbiq olunmalıdır. Sahibkarlara tətbiq ediləcək güzəştlər barədə qanun layihəsinin hazırlanması məsələsi aktualdır. Bu halda dövlət hesabına təhsil alan əlillər də işlə təmin oluna biləcəklər.

Müzakirələrdən sonra qanun layihələri Milli Məclisin plenar iclasına tövsiyə edildi.

***Fərizə ƏHMƏDOVA,***
***"Azərbaycan"***

# Ermənistan silahlı qüvvələri atəşkəs rejimini 29 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 29 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə və İcevan rayonunun Ayqeovit kəndində yerləşən mövqelərdən Qazax rayonunun Aşağı Əskipara və Cəfərli kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Yarımca, Ağdam rayonunun Tağıbəyli, Şıxlar, Baş Qərvənd, Şirvanlı, Yusifcanlı, Füzuli rayonunun Aşağı Veysəlli, Qorqan və Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# "Qazprombank"ın Azərbaycana investisiya imkanlarına dair biznes-seminar keçirilib





Martın 12-də Bakıda İqtisadiyyat Nazirliyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO), Azərbaycan-Rusiya İşgüzar Şurası və Rusiyanın "Qazprombank"ının birgə təşkilatçılığı ilə "Azərbaycan Respublikası investisiya layihələrinin həyata keçirilməsi yolunda: "Qazprombank"ın imkanları" mövzusunda biznes-seminar keçirilib.

AZƏRTAC xəbər verir ki, iqtisadiyyat naziri Şahin Mustafayev Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən olan Azərbaycan-Rusiya əlaqələrinin strateji səviyyədə olduğunu, dövlət başçılarının ölkələrimiz arasında əlaqələrin inkişafına xüsusi önəm verdiklərini vurğulayıb. Diqqətə çatdırıb ki, Azərbaycan və Rusiya prezidentləri ötən il 6 dəfə görüşüb, Prezident İlham Əliyev Rusiyaya 3 dəfə səfər edib, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin isə IX Azərbaycan-Rusiya Regionlararası Forumunda iştirak edib. Dövlət rəsmilərinin və iş adamlarının çoxsaylı qarşılıqlı səfərləri əlaqələrin daha da genişlənməsinə verilən böyük önəmin göstəricisidir.

Nazir qeyd edib ki, təkcə son 10 ildə hər iki ölkə sahibkarlarının iştirakı ilə 60-dan çox tədbir keçirilib. Bu ilin fevralında Rusiyanın iqtisadi inkişaf naziri Maksim Oreşkinin ölkəmizə səfəri çərçivəsində Hacıqabul Sənaye Məhəlləsində Azərbaycanın "Azərmaş" şirkətinin Rusiyanın "Qorki Avtomobil Zavodu" şirkəti ilə birgə həyata keçirdiyi layihə üzrə kommersiya və xüsusi təyinatlı avtomobillərin istehsalı zavodunun təməli qoyulub. Azərbaycan-Rusiya və Rusiya-Azərbaycan işgüzar şuralarının fəaliyyəti iki ölkənin işgüzar dairələri arasında əməkdaşlığın inkişafı baxımından xüsusi əhəmiyyət kəsb edir.

"Ümumilikdə hazırda Azərbaycanda Rusiya kapitalı 700-dək müəssisə sənaye, tikinti, ticarət, xidmət, bank, sığorta, İKT, nəqliyyat, kənd təsərrüfatı və sair sahələrdə uğurla fəaliyyət göstərir. İndiyədək Rusiya tərəfi Azərbaycan iqtisadiyyatına 4,2 milyard dollar investisiya qoyub. Azərbaycanın Rusiyaya yatırdığı investisiyaların həcmi 1 milyard dollardan çoxdur", - deyə nazir əlavə edib.

Ş.Mustafayev diqqətə çatdırıb ki, Azərbaycan və Rusiya arasında bir çox sahələrdə, o cümlədən enerji, nəqliyyat-tranzit, kənd təsərrüfatı, turizm və humanitar sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi perspektivli istiqamətlərdir.

Vurğulanıb ki, Azərbaycan-Rusiya əməkdaşlığının vacib istiqamətlərindən biri də ticarət əlaqələridir. Rusiya Azərbaycanın əsas ticarət tərəfdaşlarındandır və qeyri-neft məhsullarının ixracına görə birinci yeri tutur. Təkcə 2018-ci ildə Rusiya ilə ticarət dövriyyəsi əvvəlki illə müqayisədə 20 faizədək artaraq 2,55 milyard dollar təşkil edib. Hazırda qarşılıqlı ticarət əlaqələrinin daha da artırılması və şaxələndirilməsi üçün bir sıra tədbirlər görülür.

İqtisadiyyat naziri birgə reallaşdırılan layihələrin ikitərəfli iqtisadi əməkdaşlığın inkişafı baxımından əhəmiyyətini, "Qazprombank"ın ölkəmizdə uğurla fəaliyyətini qeyd edib. Bildirib ki, "SOCAR Polymer" zavodunun tikintisinin birgə maliyyələşdirilməsi SOCAR və "Qazprombank" arasında uğurlu əməkdaşlığın nümunəsidir. "Qazprombank"la, həmçinin "Azərikimya" zavodunun modernləşdirilməsi layihəsi üzrə kredit sazişi imzalanıb: "Azərbaycan Rusiyanın "Qazprombank" SC ilə ölkə iqtisadiyyatının digər sahələrində də əməkdaşlıq etməkdə, eləcə də aqrar-sənaye kompleksinin, kiçik və orta biznesin bankın imkanlarından yararlanmasında maraqlıdır".

Ş.Mustafayev bildirib ki, ötən ilin dekabrında Moskvada Azərbaycan-Rusiya Hökumətlərarası Komissiyasının 17-ci iclası çərçivəsində "Qazprombank"ın rəhbərliyi ilə keçirilmiş görüşdə biznes-seminarın təşkili barədə razılığa gəlinib: "Bugünkü tədbirdə ikitərəfli maliyyə əməkdaşlığının istiqamətləri, "Qazprombank"ın layihələrin maliyyələşdirilməsi təcrübəsi və perspektivləri, aqrar-sənaye sahəsində investisiya layihələrinin maliyyələşdirilməsi təcrübəsi, bankın dövlət-özəl sektor tərəfdaşlığı çərçivəsində infrastruktur layihələrinin reallaşdırılması imkanları, kapital bazarlarının qarşılıqlı əlaqələrinin genişləndirilməsi kimi mövzularda müzakirələr aparılacaq".

"Qazprombank"ın idarə heyəti sədrinin müavini Famil Sadıqov təmsil etdiyi maliyyə qurumunun Azərbaycanla əməkdaşlığından məmnunluğunu ifadə edib. O, "Qazprombank"ın Azərbaycandakı fəaliyyəti barədə məlumat verib, SOCAR-la uğurla əməkdaşlıq edildiyini, bankın bundan sonra da Azərbaycandakı layihələrdə fəal iştirak etməkdə maraqlı olduğunu vurğulayıb, etibarlı tərəfdaş kimi tanınan Azərbaycanla əlaqələrin genişləndirilməsi imkanlarına dair fikirlərini bölüşüb.

F.Sadıqov qeyd edib ki, hazırda "Qazprombank" Azərbaycanda kənd təsərrüfatı, infrastruktur və digər sahələrdə layihələr üzrə əməkdaşlıq imkanlarını araşdırır.

Azərbaycan-Rusiya İşgüzar Şurası idarə heyətinin sədri Səməd Qurbanov "Qazprombank"ın Azərbaycanda uğurlu fəaliyyətini vurğulayıb, biznes-seminarın əhəmiyyətini qeyd edərək şuranın ikitərəfli iqtisadi əlaqələrin inkişafında bundan sonra da fəal iştirak edəcəyini diqqətə çatdırıb.

Biznes-seminarda "Qazprombank"ın birinci vitse-prezidenti Aleksey Çiçkanov "Qazprombank"ın Azərbaycanda dövlət-özəl sektor əməkdaşlığı çərçivəsində infrastruktur layihələrinin həyata keçirilməsində təcrübəsi və imkanları", bankın icraçı vitse-prezidenti Pavel İsayev "Rusiya və Azərbaycanın kapital bazarlarının qarşılıqlı əlaqəsi: əməkdaşlıq perspektivləri", bankın layihə şöbəsinin müdir müavini Vyaçeslav Oxotin "Azərbaycanda layihələrin maliyyələşdirilməsi təcrübəsi və perspektivləri", bankın Maliyyələşdirmə İdarəsinin rəhbəri İqor Blandin "Rusiya və MDB ölkələrində kənd təsərrüfatı layihələrinin maliyyələşdirilməsində "Qazprombank"ın təcrübəsi", bankın təhlil şöbəsinin müdiri Gülnarə Xaydarşina "Azərbaycan və Rusiyanın iqtisadiyyatı: əməkdaşlığın inkişafı üçün imkanlar" mövzusunda məruzələrlə çıxış ediblər.

Biznes-seminarda "Qazprombank"ın fəaliyyəti barədə videoçarx nümayiş olunub, əməkdaşlığın genişləndirilməsinə dair müzakirələr aparılıb.

Tədbirdə aidiyyəti dövlət qurumlarının nümayəndələri ilə yanaşı, iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən 100-dən çox sahibkar iştirak edib.

# Bakı Ali Neft Məktəbində "ASAN Kadr" Karyera mərkəzinin 2-ci Karyera sərgisi keçirilib





12 mart 2019-cu il tarixdə "ASAN Könüllülük" Məktəbinin "ASAN Kadr" Karyera mərkəzi və Bakı Ali Neft Məktəbinin birgə əməkdaşlığı ilə 2-ci Karyera sərgisi keçirilib.

Tədbirdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev, Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov, müxtəlif yerli və xarici müəssisələrin nümayəndələri və digər qonaqlar iştirak ediblər.

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov qonaqları salamlayaraq artıq ikinci ildir ki, keçirilən Karyera sərgisinin gənclərin həyatına müsbət təsirini qeyd edib. Həm potensial kadr axtarışında olan şirkətləri, həm də işlə təmin olunmaq arzusunda olan gəncləri bir araya gətirən bu sərginin əhəmiyyətindən danışan rektor bu kimi layihələrin gənclər üçün təşkil edilə biləcək ən yaxşı sosial məsuliyyət layihələrindən biri olduğunu vurğulayıb.

Tədbirdə çıxış edən Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev "ASAN Kadr" Karyera Mərkəzi vasitəsilə yüzlərlə gənc və şirkətlər arasında əlaqə yaradıldığını, onların işlə təmin olunmasına kömək göstərildiyini bildirib. Dövlət agentliyinin sədri Karyera sərgisinin təşkil edilməsində göstərilən dəstəyə görə BANM rəhbərliyinə öz təşəkkürünü bildirib.

Gənclərin məşğulluğunun artırılmasına yönəlmiş karyera sərgisində vətəndaşlara məşğulluq, iş, təcrübə imkanları təklif edilib, habelə müxtəlif şirkətlərin insan resursları üzrə mütəxəssisləri ilə peşəkar ünsiyyət qurmağa şərait yaradılıb.

Mütəmadi olaraq təşkil olunan Karyera sərgisinin əsas məqsədi ASAN könüllüsü olmuş, o cümlədən savadlı, bacarıqlı, təcrübəli və iş potensialı ilə fərqlənən gənclərin məşğulluq imkanlarını artırmaq, vətəndaşların dövlət və özəl qurumlarda işlə təmin olunmalarına dəstək göstərmək, habelə müəssisələrin mövcud iş vakansiyaları haqqında məlumat vermələri üçün şərait yaratmaqdır.

"Coca-Cola" şirkətinin dəstəyi ilə təşkil olunan sərgidə ümumilikdə 80-dən çox müəssisə təmsil olunub.

"ASAN Könüllülük" Məktəbi tərəfindən ASAN könüllülərinin peşəkar kadrlar kimi formalaşması məqsədilə müxtəlif tədbirlər həyata keçirilir. Bu məqsədlə yaradılan "ASAN Kadr" Karyera mərkəzi 1100-dən çox ASAN könüllüsünün işlə təmin olunmasına bilavasitə dəstək göstərib.

*"Azərbaycan"*

# "Azercell" "Kibertəhlükəsizlik həftəsi"nə qoşulub

Azərbaycanda ilk dəfə olaraq kibertəhlükəsizlik sahəsində maarifləndirmə və informasiya təhlükəsizliyi mədəniyyətinin formalaşdırılması, informasiya proseslərinin mühafizəsinə nail olmaq məqsədilə 11-15 mart 2019-cu il tarixlərdə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən beynəlxalq "Kibertəhlükəsizlik həftəsi" keçirilir.




"Kibertəhlükəsizlik həftəsi"nin əsas istiqamətlərindən biri virtual dünyada uşaqların təhlükəsizliyinin təmin edilməsidir. Bu sahədə böyük təcrübəsi olan "Azercell Telekom" MMC həftənin aktiv iştirakçılarından biridir. "Kibertəhlükəsizlik həftəsi" çərçivəsində "Azercell" tərəfindən təhsil müəssisələrində uşaqlar, valideynlər və müəllimlər üçün internetdən təhlükəsiz istifadə mövzusunda təlimlər təşkil edilir. Artıq mart ayının 4-dən 7-nə kimi Şəmkirdə "Azercell"in dəstəyi ilə "Azərbaycan Müəllim İnkişafı Mərkəzi" tərəfindən "İnternet təhlükəsizliyi və rəqəmsal vətəndaşlıq" mövzusunda təlim keçirilib. Təlimdə 166 şagird, 38 müəllim və valideyn iştirak edib.

Təlimlərdə böyüklərlə yanaşı, uşaqların da həyatının ayrılmaz hissəsinə çevrilən internetdə rast gəlinən təhlükələr barədə məlumat verilir. Yüzlərlə iştirakçısı olan treninqlərdə məktəblilərə kibertəhlükəsizlik anlayışı aşılanır, internetdən gələn təhlükənin dərəcəsi, səbəbləri araşdırılır. Uşaqlar təhlükəsiz portallarla tanış edilir, onlara təhlükəsiz axtarış saytlarından istifadə qaydaları öyrədilir. Təlimlərdə internetdəki təhlükəli oyunlar, ekstremizm çağırışları, insanların maliyyə məlumatlarının, özəl informasiyanın oğurlanması kimi hallarla mübarizə yollarından bəhs olunur, internet təhlükəsizliyi, təhlükəsiz ev mühiti, şagirdlərin üzləşə biləcəkləri çətinliklərlə bağlı ətraflı məlumat verilir. Təlimlərdə eyni zamanda müəllim və valideynlərə qurğuların kibertəhlükələrdən mühafizəsi, login və parolların kibermüdafiəsi, təhlükəsiz paylaşma üsulları öyrədilir, şəbəkədən səmərəli istifadə ilə bağlı tövsiyələr verilir, uşaqlar üçün yaradılmış təhlükəsiz resursların siyahıları, internetdən təhlükəsiz istifadənin əsaslarını öyrədən materiallar təqdim olunur.

Qeyd edək ki, indiyədək Azərbaycanın müxtəlif bölgələrində "Azercell"in təşəbbüsü ilə məktəblilər, valideynlər və müəllimlər üçün keçirilən bu cür təlimlər gələcəkdə də mütəmadi olaraq təşkil olunacaq.

"Kibertəhlükəsizlik həftəsi" çərçivəsində "Azercell Telekom" MMC-nin növbəti təlimi 11-15 mart tarixlərində Gəncədə keçirilir.

Dünyada kibertəhlükələrin sayı və əhatə dairəsi genişləndiyindən hal-hazırda valideyn nəzarəti proqramlarına daha çox ehtiyac yaranmaqdadır. Bu baxımdan artıq 3 ildir ki, tətbiq olunan "Azercell Plus Təhlükəsizlik" proqramı böyük əhəmiyyət kəsb edir. Bu proqram uşaqlar üçün internet şəbəkəsində təhlükəsizliyə yönəldilmiş "Universal Müdafiə", "Android üçün müdafiə" və "Valideyn nəzarəti" xidmətlərini əhatə edir. Bu proqram uşağın sosial şəbəkələrdə postlarını və dostlar siyahısındakı dəyişiklikləri izləməyə, onun qoşulduğu qruplardan xəbərdar olmağa, yerini müəyyənləşdirmək və onun üçün təhlükəsiz ərazi yaratmaq imkanı verir.

"Kibertəhlükəsizlik həftəsi"nin məqsədləri sırasında əhalinin bu sahədə maarifləndirmə səviyyəsinin artırılması, habelə ümummilli hazırlığın yüksəldilməsinə nail olmaq mühüm yer tutur. Həftə çərçivəsində fərqli qurumların dəstəyi ilə müxtəlif forum və tədbirlər, müsabiqələr də təşkil olunacaq.

*"Azərbaycan"*

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti

### *açıq tenderə dəvət edir*

Tender 1 LOT üzrə keçirilir:
**P-274 naqilinin satın alınması**

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tender təkliflərini imzalanıb möhürlənmiş ikiqat zərflərdə yazılı təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər
**200 (iki yüz ) manat (ƏDV xaric) iştirak haqqını**
sifarişçinin aşağıdakı hesablaşma hesabına köçürdükdən sonra "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında tenderin əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741**
**Hesab: AZ14AZPO91015461200420100157**
**Bank: Azərpoçt MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖENi: 9900037711**
**M/h: AZ76NABZ01350100000000094944**
**SWIFT: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər **24 aprel 2019-cu il saat 17:00-dək** aşağıdakı sənədləri "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faizi Bank Zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcək.

1. *Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
2. *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
3. *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
4. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
5. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış.*
6. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*
7. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*
8. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
9. *İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*
10. *Digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını möhürlənmiş ikiqat zərfdə **02 may 2019-cu il saat 17:00-a** qədər "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru **03 may 2019-cu il saat 15:00-da** "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında keçiriləcəkdir.

Tenderlə əlaqədar daha ətraflı məlumat almaq üçün iştirakçılar əlaqələndirici şəxsə müraciət edə bilərlər.

**Əlaqələndirici şəxs: Məmmədov Faiq,**
**tel.: (+994 12) 498-39-29**

***Tender komissiyası***

# Şəki bahara gəl-gəl deyir

## 4 gün davam edən Bahar festivalı insanlara xoş ovqat bəxş etdi

**Həmişə qonaq-qaralı, çal-çağırlı olması ilə seçilən Şəki yenə də bayram ab-havasında idi. Şəhərin zahiri görünüşünə daha bir gözəllik qatan, spesifik memarlıq üslubu ilə diqqəti cəlb edən Şəki "ASAN Həyat" kompleksində son dörd gün ərzində fərqli bir canlanma yaşandı.**







Burada xalqımızın qədim adət-ənənələrindən sayılan Novruz bayramı münasibətilə təşkil edilən Bahar festivalı keçirildi. Festival zəngin proqramı ilə Şəki sakinlərinə, eləcə də qurumun xidmətlərindən yararlanmaq üçün ətraf rayonlardan gələn vətəndaşlara unudulmaz anlar yaşatdı.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan İnnovasiyalar Mərkəzinin Şəki Şəhər İcra Hakimiyyəti ilə birgə təşkil etdiyi Bahar festivalına martın 9-da start verilmişdi.

Festivalın əsas məqsədi, adından da göründüyü kimi, xoş mərama xidmət edirdi. Məqsəd xalqımızın milli dəyərlərindən olan Novruz bayramının adət-ənənələrini yaşatmaq və gələcək nəsillərə ötürmək, insanların bayram əhvali-ruhiyyəsini yüksəltmək, bölgələrdə yaşayan müxtəlif xalqların milli mədəniyyətini, musiqisini, folklorunu, mətbəxini nümayiş etdirmək və tanıtmaq idi.

"ASAN Həyat" kompleksinin həyətində xalqımızın Novruz adət-ənənələrini özündə əks etdirən sərgilər, guşələr və yerli şirkətlərin məhsullarından ibarət satış yarmarkaları təşkil edilmişdi. Burada milli personajların iştirakı ilə bayram tamaşaları, konsert proqramları təqdim olunurdu. Pəhləvan və kəndirbazların oyunları, Kosa və Keçəlin duzlu-məzəli zarafatları, idmançıların çıxışları festival iştirakçılarına xoş ovqat bəxş edir, qəlblərini riqqətə gətirirdi.

Mərasimdə iştirak edən Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov festival iştirakçılarını xalqımızın qədim el bayramlarından olan Novruz münasibətilə təbrik edərək onlara xoş əhvali-ruhiyyə arzuladı. Eyni zamanda belə tədbirlərin keçirilməsində, insanların çöhrələrinin təbəssümlü olmasında, gələcəyə nikbin baxmalarında ölkəmizdə dövlət başçısı tərəfindən yaradılan münbüt şəraitin əhəmiyyətli rolunu vurğuladı. Qeyd edildi ki, adət-ənənələrimizin qorunmasında, insanların firavan yaşamasında bugünkü sabitlik xüsusi dəyər daşıyır.

"ASAN xidmət"in tabeliyində olan İnnovasiyalar Mərkəzi MMC-nin direktoru Tağı Tağızadə iştirakçıları qarşıdan gələn əziz Novruz bayramı münasibətilə təbrik etdi. Eyni zamanda belə tədbirlərin davamlı şəkildə keçirilməsinə iddialı olduqlarını bildirdi.

Sonra meydanın mərkəzində qurulan bayram tonqalı alovlandırıldı.

Bayram tədbirində Şəki Regional Mədəniyyət İdarəsinin tabeliyində olan rayon nümayəndəliklərinin rəqs və folklor kollektivləri rəngarəng konsert proqramı ilə çıxış etdilər. Paytaxtdan dəvət olunan tanınmış müğənnilərin çıxışları festival iştirakçılarının ürəyincə oldu.

Festival günlərində həmçinin "ABAD Gastro Village" layihəsi çərçivəsində food trucklarda (təkərli qoşqular) "ABAD" məhsullarından hazırlanmış fast-foodların satışı da həyata keçirildi.

Şəki "ASAN Həyat" kompleksində Bahar festivalı martın 12-si axşam saatlarınadək davam etdi.

Festivalla bağlı iştirakçıların fikirlərini də öyrəndik. "Yuxarı Baş" Dövlət Tarix-Memarlıq Qoruğunun direktoru Təranə Abdullayeva tədbirlə bağlı təəssüratlarını bölüşür: - Qədim adət-ənənələrə hörmətlə yanaşan, onları daim qoruyub inkişaf etdirən Şəki bu gün əsl bayram libasına bürünüb. Novruzun ölkəmizə qədəm basmasına hələ təxminən bir həftə qalmasına baxmayaraq, hər kəs əziz bayramına köklənib. Şəhərin bütün sənətkarlarının burada satış sərgisi açılıb. Həmin sərgilərə baxmaq üçün bura minlərlə tamaşaçı gəlir. Çox fərəhlənirik ki, "ASAN xidmət" fəaliyyətə başladığı ilk günlərdən hər şeyi mükəmməl edir. Əminik ki, bizim müştərək işlərimiz bundan sonra da bərabər hazırlanacaq və birgə həyata keçiriləcək.

Şəkiyə turist kimi gələn Südabə Səfixanova da çox məmnun görünür. Rastlaşdıqlarından əməlli-başlı təsirlənib. O da festivalla bağlı xoş təəssüratlarını bildirir: - Çox gözəl təşkil olunub. Hər şey mükəmməldir. Təşkilatçılara yalnız minnətdarlıq düşür. Bu qədər insanı 4 gün ərzində əyləndirmək, onları adət-ənənələrə bu qədər yaxınlaşdırmaq qiyməti ölçülməyən dəyərdir. Hamıya bolluq, firavanlıq arzulayıram. Arzum budur ki, bu bahar insanlara gözəl, daha mənalı, daha firavan həyat bəxş etsin.

Özbəkistanın ölkəmizdəki səfirinin köməkçisi Şahidə Mehdiyeva da tədbirin təsiri altındadır. Onun dedikləri: - "ASAN xidmət"in tədbirində ilk dəfə iştirak edirik. Ümumiyyətlə, Şəkiyə birinci gəlişimizdir. Burada olmağımıza görə çox sevinirik. Şəki sözün əsl mənasında əsrarəngizliyi ilə bizi daha çox duyğulandırdı. Burada zəngin tarixin və adət-ənənəyə, mədəni dəyərlərə hörmətin şahidi olduq. Mətbəxi və şirniyyatları isə dillə deyiləsi deyil. Biz burada Özbəkistanda keçirilən Novruz bayramında bişirilən yeməklərlə təmsil olunuruq. Özbəkistanda Novruz süfrəsinə kuş dili, çakçak, tuçvara, boğursok kimi şirniyyatlar düzülür. Hər kəsi sevimli bayram münasibətilə təbrik edirəm.

Şəki Regional Mədəniyyət İdarəsinin rəisi Mirvari Zeynalova da deyilənlərə əlavə edir: - Şəkililərin və şəhərimizin qonaqlarının dörd gün sevinc hissi ilə izlədiyi Bahar festivalının özəlliyi çoxdur. Burada vacib məqamlardan biri də festivalda təkcə Azərbaycanın deyil, Novruzu qeyd edən digər dövlətlərin diplomatik nümayəndəliklərinin də öz stendləri ilə çıxış etmələridir. Onlar da öz ölkələrinin adət-ənənələrini, milli mətbəx nümunələrini, şirniyyat növlərini bizim əhaliyə çatdırırlar. Düşünürük ki, analoji tədbirlərin növbəti illərdə də keçirilməsi oxşar mədəniyyətləri paylaşan xalqların bir-birinə yaxınlaşmalarına əvəzsiz töhfə verə bilər.

***Əli SƏLİMOV,***
***"Azərbaycan"***

# Beynəlxalq aləm

## ABŞ tərəfdaş ölkələrə hərbi yardımı artıracaq

ABŞ xarici ölkələrə, o cümlədən Ukrayna və Gürcüstana hərbi yardımın maliyyəşdirilməsini genişlətmək niyyətindədir. Bu barədə Dövlət Departamentinin 2010-ci il üçün büdcə layihəsinə istinadən "RİA Novosti" agentliyi xəbər verir.

Layihəyə əsasən, 100 milyon dollar xarici ölkələrin hərbi qulluqçularının təlim və hazırlanmasına ayrılacaq. Bu, ötən illə müqayisədə 5 milyon dollar çoxdur. Həmin məbləğdən 26,4 milyon dolları Avropa və Avrasiya ölkələrinin silahlı qüvvələri "Rusiyanın təsiri və təcavüzü ilə mübarizə" üçün alacaq. Bu ölkələrin siyahısına Ukrayna, Gürcüstan, Bolqarıstan, Polşa, Ruminiya və Türkiyə daxildir. Bundan əlavə, ABŞ administrasiyası "Xarici hərbçilərin maliyyələşdirilməsi" proqramına 5,3 milyard dollardan çox vəsait istəyir. Bu, ötənilkindən 23,9 milyon dollar çoxdur. Həmin proqram üzrə Avropada ilk növbədə Ukrayna, Gürcüstan, Estoniya, Latviya və Litva yardım alacaq. Avropa və Avrasiya ölkələrinə ümumilikdə 75 milyon dollar ayrıla bilər.

Yaxın Şərq və Şimali Afrika ölkələrinin orduları "terrorçular və İranla mübarizə" məqsədilə 5 milyard dollar ala bilər. Bu vəsaitin bir qismi silahlı qüvvələrini modernləşdirməklə məşğul olan, eyni zamanda Rusiya hərbi texnikasından və silahlarından imtina edən ölkələrə yardım kimi veriləcək. Dövlət Departamenti "Rusiya ilə mübarizə"yə cəmi 661 milyon dollar xərcləməyi planlaşdırır.

## Çində gəmilər toqquşdu

Çin sahillərinin yaxınlığında balıqçı gəmisi və əcnəbi yük gəmisi toqquşmuşdur. İtkin düşənlər var. Axtarış-xilasetmə əməliyyatı keçirilir. Bu barədə "Sinxua" agentliyi xəbər verir.

Hadisə Çjetszyan sularında baş vermişdir. Balıqçı gəmisindəki 14 nəfərdən 12-si indiyədək tapılmayıb. Heyətin iki üzvü xilas edilmişdir.

Xarici gəmi Baham adalarının bayrağı altında üzürdü. Həmin gəmidə zərərçəkənlər barədə məlumat verilmir.

## Braziliyada 12 nəfəri sel apardı

Braziliyada daşqınlar tüğyan edir. 12 nəfər, o cümlədən bir uşaq təbii fəlakətin qurbanı olmuşdur. Bu barədə yerli KİV xəbər verir.

Məlumata görə, ötən bazar günündən bəri ölkədə leysan yağışları səngimir. Güclü yağıntılar binaların uçmasına səbəb olub. Bəzi bələdiyyələrdə fövqəladə vəziyyət rejimi tətbiq edilib. Meteoroloqların proqnozuna görə, yağış hələ iki gün davam edəcək.

## Fransada həbsxana nəzarətçilərinin tətili davam edir

Fransanın müxtəlif şəhərlərində yerləşən həbsxanaların əməkdaşları bir həftədir ki, tətil edirlər. Onlar islamçı məhbusların tez-tez baş verən hücumları ilə əlaqədar əmək şəraitinin təhlükəsizliyinin təmin olunmasını tələb edirlər.

Həmkarlar ittifaqından verilən məlumata görə, srağagün ölkədə 100-ə yaxın etiraz aksiyası keçirilmişdir. Marseldə nəzarətçilər qədim Bomett şəhər həbsxanasını mühasirəyə almışlar. Strasburq və Nitsada personalın səlahiyyətlərini icra etməməsi səbəbindən həbsxanaların işi tamamilə pozulmuşdur. Etirazçılar məhbusların və onları ziyarət edənlərin üzərində axtarışa qoyulmuş məhdudiyyətlərin ləğv olunmasını, həbsxana personalının zirehli jiletlərlə təmin edilməsini və radikalların cəza çəkdikləri həbsxanalarda işçi ştatının artırılmasını tələb edirlər.

Xatırladaq ki, tətilə səbəb Konde-Sür-Sart həbsxanasında islamçı məhbusun iki mühafizəçiyə hücum etməsi olmuşdur. Məhbus görüşə gəlmiş həyat yoldaşının gətirdiyi bıçaqla nəzarətçilərə xəsarət yetirmişdi.

## “Bakı Metropoliteni” QSC “Qırmızı və yaşıl xətləri”ndə tikilmiş ventilyasiya şaxtalarında quraşdırılacaq səsboğucuların və onların şef-montaj işlərinin satın alınması üzrə *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəfili küçəsi, 16-dan (əlaqələndirici şəxs: Rauf Yusifov, telefon: 490-00-91) ala bilərlər.

**LOT-1. “Bakı Metropoliteni” QSC-nin “Qırmızı və yaşıl xətləri”ndə tikilmiş ventilyasiya şaxtalarında quraşdırılacaq səsboğucuların və onların şef-montaj işlərinin satın alınması**

**İştirak haqqı - 250 manat**

**Hesabın adı: BAKI METROPOLITENI QSC**
**Hesab nömrəsi (IBAN):**
**AZ98AZRT38050019440010268002 AZN**
**AZ68AZRT38150019780010268002 EUR**
**AZ88AZRT38150018400010268002 USD**
**VÖEN: 1402871431**
**Bankın adı: AZƏR-TÜRK BANK ASC (Mərkəz Filialı)**
**Kod: 501361**
**VÖEN: 9900006111**
**Müxbir hesabı: AZ02NABZ01350100000000022944**
**SWIFT BIK: AZRTAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 40 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 70 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **19 aprel 2019-cu il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **29 aprel 2019-cu il saat 17:00-a** qədər, Bakı şəhəri, M.Rəfili küçəsi, 16 ünvanına “İcraya nəzarət, kargüzarlıq və təsərrüfat işləri” şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **30 aprel 2019-cu il saat 15:00-da** yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## “Bakı Metropoliteni” QSC müxtəlif növ tros, kanat və yük kəmərlərinin satın alınması üzrə *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəfili küçəsi, 16-dan (əlaqələndirici şəxs: Rauf Yusifov, telefon: 490-00-91) ala bilərlər.

**LOT-1. Müxtəlif növ tros, kanat və yük kəmərlərinin satın alınması**

**İştirak haqqı - 100 manat**

**Hesabın adı: BAKI METROPOLITENI QSC**
**Hesab nömrəsi (IBAN): AZ98AZRT38050019440010268002 AZN**
**VÖEN: 1402871431**
**Bankın adı: AZƏR-TÜRK BANK ASC (Mərkəz Filialı)**
**Kod: 501361**
**VÖEN: 9900006111**
**Müxbir hesabı: AZ02NABZ01350100000000022944**
**SWIFT BIK: AZRTAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 40 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 70 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **19 aprel 2019-cu il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **29 aprel 2019-cu il saat 17:00-a** qədər, Bakı şəhəri, M.Rəfili küçəsi, 16 ünvanına “İcraya nəzarət, kargüzarlıq və təsərrüfat işləri” şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **30 aprel 2019-cu il saat 15:30-da** yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

“Bakı Metropoliteni” QSC tərəfindən 08 fevral 2019-cu il tarixdə keçirilmiş Avtomobil, maşın və mexanizmlər üçün süzgəc və akkumulyatorların satın alınmasına dair açıq tender üsulu ilə keçirilən müsabiqədə tenderin əsas şərtlər toplusunun tələblərini və qiymətləndirmənin nəticələrini nəzərə alaraq LOT-1 Avtomobil, maşın və mexanizmlər üçün süzgəclərin satın alınması üzrə keçirilən tenderdə iştirak etmiş şirkətlər arasında **“LİNDPRO” MMC** (VÖEN: 1802557051) ƏDV daxil **99550.53 manat** (doxsan doqquz min beş yüz əlli manat 53 qəpik) məbləği ilə Tender komissiyasının qərarına əsasən bu LOT üzrə qalib elan olunub. Qalib gəlmiş təşkilatlar ilə müvafiq satınalma müqavilələri imzalanmışdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Aparatın balansında olan nəqliyyat vasitələrinin cari ildə hissələrinin yenisi ilə əvəz olunması və ya təmiri, sürtkü materiallarının dəyişdirilməsi xidmətlərinin *kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir*

Maraqlanan təşkilatlar (012) 596- 44- 09 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 18 mart 2019-cu il saat 17:00 tarixədək Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında qəbul olunur.

***Tender komissiyası***

# DSX: sərhəd naryadına odlu silahdan atəş açan sərhəd pozucularından biri zərərsizləşdirilib

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti (DSX) dövlət sərhədinin etibarlı mühafizəsinin təmin olunması sahəsində tədbirləri qətiyyətlə davam etdirir.

Martın 12-də saat 00:07 radələrində Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının “Göytəpə” sərhəd dəstəsinin Yardımlı rayonunun Ostair kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti ərazisində sərhəd naryadı tərəfindən İran İslam Respublikası ərazisindən Azərbaycan Respublikası istiqamətində hərəkət edən 6 nəfər silahlı naməlum şəxs müşahidə olunub.

Sərhəd zastavası “Silaha” komandası üzrə qaldırılıb, xidməti ərazi qapadılıb. Sərhəd naryadı tərəfindən “Dayan” əmri verilərək sərhəd pozucuları təqib edilib və havaya xəbərdarlıq atəşi açılıb. Lakin sərhəd pozucuları əmrə tabe olmayaraq odlu silahdan sərhəd naryadına atəş açıblar.

“Dövlət sərhədi haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq sərhəd naryadı tərəfindən silah tətbiq edilib. Sərhəd pozucularından biri aldığı güllə yarasından hadisə



yerində ölüb. Digər sərhəd pozucuları əllərindəki yükləri ataraq ərazinin mürəkkəb relyefindən və havanın qaranlıq olmasından istifadə edərək geri qaçıblar.

Sərhəd nümayəndəliyi xətti ilə İran İslam Respublikasının sərhədçilərinə hadisə barədə dərhal məlumat verilib. İran sərhədçiləri tərəfindən təxirəsalınmaz axtarış tədbirləri həyata keçirilib.

Zərərsizləşdirilmiş sərhəd pozucusunun yaxınlığında əraziyə baxış zamanı 4 bağlamada külli miqdarda heroin və tiryək, güclü təsirli psixotrop maddələr, 1 ədəd ov tüfəngi, 6 ədəd 12 millimetr çaplı ov tüfənginin patronları və gilizlər aşkar olunub.

Hadisədən dərhal sonra Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev və digər vəzifəli şəxslər əraziyə gəlib, hadisə yerinə baxış keçiriblər. Əməliyyat-axtarış tədbirlərinin davam etdirilməsinə dair zəruri tapşırıqlar verilib. DSX rəisi İranın Muğan sahəsi üzrə sərhəd komissarı ilə ərazidə görüşüb. Sərhəd pozucularının axtarışı üzrə birgə tədbirlər müzakirə olunub.

Vətən sərhədlərinin keşiyində ayıq-sayıq duraraq dövlət sərhədinin pozulmasının qarşısını almış hərbi qulluqçular təltif edilib.

Hazırda Dövlət Sərhəd Xidmətinin və Hərbi Prokurorluğun əməkdaşları tərəfindən hadisə ilə əlaqədar zəruri əməliyyat-istintaq hərəkətləri həyata keçirilir.

*“Azərbaycan”*

## Azərbaycan Respublikasının Mərkəzi Bankı “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq aşağıdakı LOT-lar üzrə *açıq tender elan edir*

*Təkrar*

**LOT 1:** Azərbaycan Respublikasının Mərkəzi Bankında xəzinə infrastrukturunun fəaliyyətini və əsginasçeşidləyici sistemlərin istismarını təmin etmək üçün tələbata uyğun qablaşdırma materiallarının satın alınması;

**LOT 2:** Azərbaycan Respublikasının Mərkəzi Bankında xəzinə infrastrukturunun fəaliyyətini təmin etmək üçün elektrikli yükqaldıranların satın alınması;

**LOT 3:** Azərbaycan Respublikasının Mərkəzi Bankında xəzinə infrastrukturunun fəaliyyətini təmin etmək üçün pulsayan maşınların satın alınması;

**LOT 4:** Azərbaycan Respublikasının Mərkəzi Bankında dizayner studiyası üçün fotoaparatın və onun linzasının satın alınması.

1. Tender proseduru **18.04.2019-cu il tarixdə saat 15:00-da** Azərbaycan Respublikası Mərkəzi Bankının inzibati binasında (Bakı şəhəri, Rəşid Behbudov küçəsi, 90) keçiriləcəkdir.

2. Tenderdə iştirak etmək üçün iddiaçı aşağıdakı sənədləri təqdim etməlidir:

- *tenderdə iştirak üçün ərizə (iştirak ediləcək satınalma predmeti dəqiq göstərilməklə);*
- *iddiaçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya hüquqi şəxslərin dövlət reyestrindən çıxarış və s.) notariat qaydasında təsdiq edilmiş surətləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *tenderdə iştirak haqqının ödənilməsi haqqında bank arayışı;*
- *iki nüsxə (əsli və surəti) Azərbaycan dilində tender təklifi (tender təklifi 03.06.2019-cu il tarixədək qüvvədə olmalıdır);*
- *tender təklifi qiymətinin 1 (bir) faizi məbləğində bank təminatı (tenderin əsas şərtlər toplusuna əlavə edilən bank qarantiyası formasında);*
- *iddiaçının son 1 (bir) ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi üzrə vaxtı keçmiş öhdəliklərinin olmaması barədə dövlət orqanından arayış;*
- *iddiaçının müvafiq sahə üzrə ən azı 2 (iki) illik iş təcrübəsini əks etdirən məlumatlar (korporativ müştərilərin adı, ünvanı, əlaqə telefonu göstərilməklə) (LOT 1, LOT 2 və LOT 3 üzrə iştirak edən iddiaçılara münasibətdə);*
- *əlaqəli şəxs olmayan və ya iddiaçı üzərində əhəmiyyətli nəzarəti həyata keçirməyən ən azı 2 (iki) korporativ müştəri tərəfindən son 3 (üç) ildə verilən tövsiyə məktubu (LOT 2 üzrə iştirak edən iddiaçılara münasibətdə);*
- *tenderin əsas şərtlər toplusunda iddiaçının ixtisas uyğunluğuna dair tələb olunan digər məlumat.*

3. İddiaçı tender təklifini və tender təklifinin bank təminatını 17.04.2019-cu il saat 18:00-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə ikiqat zərfdə, digər tələb olunan sənədləri isə ən geci 08.04.2019-cu il saat 18:00-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə bağlı zərfdə Mərkəzi Bankın Bakı şəhəri, Rəşid Behbudov küçəsi, 90 ünvanında yerləşən inzibati binasına təqdim etməlidir. Göstərilən vaxtdan gec təqdim olunmuş zərf və sənədlər açılmadan geri qaytarılacaq və iddiaçı tenderə buraxılmayacaqdır.

4. İddiaçılar tenderdə iştirak haqqı kimi Azərbaycan Respublikası Mərkəzi Bankının aşağıdakı hesabına **hər bir iştirak etdiyi LOT üzrə 100** (bir yüz) manat məbləğində vəsait köçürməlidir:

**Azərbaycan Respublikasının Mərkəzi Bankı**
**Kod: 501004, VÖEN: 9900071001**
**Hesab: AZ25NABZ01701190000000001944**
**Müxbir hesab: AZ74NABZ01451700000000001944**
**SWIFT BİK: NABZAZ2C**
Mərkəzi Bankın Ödəniş sistemləri və hesablaşmalar departamenti.

5. Xarici iddiaçılar iştirak haqqını ödəniş günündə Azərbaycan Respublikası Mərkəzi Bankının rəsmi məzənnəsi ilə ABŞ dollarında aşağıda göstərilmiş hesaba ödəyə bilərlər:

**Central Bank of the Republic of Azerbaijan**
**USD correspondent bank Federal Reserve Bank of New York, FRNYUS33**
**Beneficiary: Central Bank of the Republic of Azerbaijan**
**NABZAZ2X**
**ABA 021088221**
**Account number: AZ25NABZ01701190000000001944**

6. Satınalmaya başlanma vaxtı:
satınalma müqaviləsi imzalandığı gündən.

7. Malların təqdim edilməsi müddəti:
LOT 1 üzrə satınalma müqaviləsi imzalandığı gündən etibarən müqavilə müddəti ərzində sifariş əsasında hissə-hissə olaraq sifariş alındığı tarixdən 60 (altmış) təqvim günü müddətində;
LOT 2, LOT 3 və LOT 4 üzrə satınalma müqaviləsi imzalandığı gündən 90 (doxsan) təqvim günü müddətində.

8. Qiymətləndirmə meyarları: qiymət və texniki amillər.

9. Tenderdə iştirak etmək istəyən hər bir şəxs iştirak haqqının ödənilməsi barədə bank arayışını təqdim edərək Mərkəzi Bankın Bakı şəhəri, Rəşid Behbudov küçəsi, 90 ünvanında yerləşən inzibati binasından Azərbaycan dilində tərtib edilmiş tenderin əsas şərtlər toplusunu əldə edə bilərlər.

Tenderin əlaqələndirici şəxsi: Nəsib Pənahlı (Nağd pul departamenti), telefon: 493-11-22 (dax.tel.:384).
email: nasib_panahli@cbar.az.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Lənkəran şəhəri Əlillərin Regional Bərpa Mərkəzinin əsaslı təmiri işlərinin satın alınması ilə əlaqədar *açıq tenderə dəvət edir*

*Təkrar*

Tender 1 LOT üzrə keçirilir:

- Lənkəran şəhəri Əlillərin Regional Bərpa Mərkəzinin əsaslı təmiri işlərinin (əsas bina, nasosxana, qazanxana, avadanlıq, sahədaxili xətlər, abadlaşma, xarici elektrik xətti) satın alınması

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Salatın Əsgərova küçəsi, 85 (əlaqələndirici şəxs: Tender komissiyası, (012) 596-44-09) ünvanından ala bilərlər.

İştirak haqqı: hər LOT üzrə 1500 (bir min beş yüz) manat.

**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi**

**VÖEN: 1700093011**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**KOD: 210005**
**Müxbir Hesabı: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT: CTREAZ22**
**H/HESABI: AZ80CTRE00000000000002138501**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142340**
**Büdcə səviyyəsinin kodu - 7**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
- *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
- *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
- *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış.*
- *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*
- *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*
- *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
- *İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*
- *Digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin təminatı istisna olmaqla) **08 aprel 2019-cu il saat 17:00-dək**, tender təklifi və tender təklifinin təminatını isə möhürlənmiş ikiqat zərfdə **16 aprel 2019-cu il saat 17:00-dək Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85** ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **17 aprel 2019-cu il saat 15:00-da** Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## Sumqayıt Şəhər İcra Hakimiyyəti abadlıq-quruculuq və avtomobil yollarının əsaslı təmiri işlərinin davam etdirilməsinin satın alınmasının *təkliflər sorğusu üsulu ilə həyata keçirilməsini elan edir*

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 18 mart 2019-cu il tarixdə saat 17:00-a kimi qəbul olunur. Təkliflər sorğusunun açılışı 2019-cu il mart ayının 19-da saat 15:00-da Sumqayıt şəhəri, Azərbaycan prospekti, 9 ünvanında Sumqayıt Şəhər İcra Hakimiyyətinin kiçik zalında keçiriləcəkdir.

**Əlaqələndirici şəxs: Rəhimdil Əhmədov. Telefon: (018) 65 5-14-48**

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Prezidentinin aqrar siyasət məsələləri üzrə köməkçisi-şöbə müdiri Azər Əmiraslanov və şöbənin kollektivi Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü

**MUSA SALAM OĞLU MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Prokurorluğunun kollektivi Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Əməliyyat təminatı şöbəsinin rəisi Fuad Rəsulova atası

**MİRMEHTİ MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bəxtiyar Sadıqov, Amil Novruzov, Bəxtiyar Əzizli və İxtiyar Hüseynli qələm dostları Tahir Aydınoğluna atası

**AYDIN RÜSTƏMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

M.A.Mirqasımov adına Respublika Klinik Xəstəxanasının Kardiologiya şöbəsinin müdiri Rəhimə Əlizadə və şöbənin kollektivi Hacıağa Baxşəliyevə atası

**ƏZZAĞA BAXŞƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8569
Sifariş 892
Qiyməti 40 qəpik